# Quran əxlaqına görə :

## Müsəlmanlar təmiz və baxımlı olmalıdırlar.



< Qovulmuş şeytandan Allah'a sığınıram >

**“Ey Adəm oğulları! Məscidlərə (gedərkən) gözəl geyimlərinizi geyin. Yeyin-için, lakin israf etməyin. Şübhəsiz ki, (Allah) israf edənləri sevmir.”**
**(Əraf surəsi, 31)**

*Qur’an: «Həqiqətən, məscidlər və səcdəgahlar Allahındır. Buna görə Allahla bərabər heç kəsi çağırmayın.» (Cin, ayə 18)*

*Qur’an: «Allahın məscidlərini yalnız Allaha və axirət gününə iman gətirən, namaz qılan, zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayan şəxs abad edər. Ümid var ki, onlar doğru yolu tapsınlar.» (Tövbə, ayə 18)*

*Allahın Peyğəmbəri (s) (məscidlərin necə abad olunması barədə Əbuzərin sualının cavabında): «Onlarda səslərini qaldırmasınlar, nalayiq və boş-boş sözlərə, işlərə vaxt sərf etməsinlər. Orada alış-veriş edilməsin. Məsciddə olduğun müddətdə hədər və əhəmiyyətsiz işlərdən əl çəkəsən. Əgər belə etməsən, Qiyamət günü özündən başqa bir kəsi danlamağa haqqın yoxdur.» (Məkarimul-Əxlaq, c.2,səh. 374, hədis 2661)*

*Allahın Peyğəmbəri (s):«Kim camaat namazında iştirak etmək üçün məscidə getsə, atdığı hər bir addıma yetmiş min yaxşı əməlin savabı yazılar və həmin həddlə dərəcəsi ali səviyyəyə yüksələr. Əgər bu halda ölərsə, Allah-taala yetmiş min mələyi, qəbrdən qalxan günədək onu qəbrdə ziyarət etmək, tənhalıqda onunla munis olmaq və günahlarının bağışlanmasını istəməkdən ötrü ayırar.» (Biharul-Ənvar, c.76,səh. 336, hədis 1)*

*Allahın Peyğəmbəri (s):«Ey Əbuzər! Məsciddə oturduğun müddətdə Allah-taala hər aldığın nəfəs üçün sənə Cənnətdə bir dərəcə verər, mələklər sənə salam göndərər, məsciddə çəkdiyin hər bir nəfəs üçün sənə on yaxşı əməlin savabı yazılar və on günahın silinər.» (Biharul-Ənvar, c.77, səh. 85, hədis 3)*

*Allahın Peyğəmbəri (s):«Kim bu pis iyli dənəni (yə’ni sarımsağı) yeyərsə, bizim məscidə yaxınlaşmasın. Amma məscidə gəlməyəcək şəxsə yeməyin eybi yoxdur.» (Biharul-Ənvar, c.84,səh. 9, hədis 83)*

*Allahın Peyğəmbəri (s):«Məsciddə iki rəkət namaz qılmadan onu özünüzün keçid yeri etməyin.» (Əmali-Səduq,səh. 344, hədis 1)*

# ÖZÜNÜTƏRBİYƏ METODU

**1. "TCQ" modeli**

İnsanlara "Əxlaqlı ol, zülm etmə!" deyilir və onlara "Xəyanət etməməlisən, doğru danışmalısan, yalan danışmalı deyilsən, azad olmalısan" və s. bu kimi əxlaqi formullar göstərilir, ancaq kimsə onlara deyilən formulları hansı mexanizm daxilində həyata keçirməli olduqlarını söyləmir. Yəni onlara deyən yoxdur ki, əgər belə etsəniz, özünütərbiyədə effektiv bir nəticəyə nail ola bilərsiz.

Qeyd olunan problemi nəzərə alaraq, "TCQ" modeli adlandırdığım üçlü bir model barədə yazmağı qərara aldım. Bu üçlü modeldə göstərməyə çalışacam ki, insan özünütərbiyədə hansı mexanizm daxilində effektiv nəticəyə nail ola bilər. Zənnimcə, insan özünü əxlaqi baxımdan aşağıda qeyd edəcəyim "üçlu model" vasitəsilə effektiv tərbiyə edə bilər. İnsan bu modeldə üç əsas mərhələdən keçərək "özünütərbiyə"yə nail ola bilər. Gəlin, ilk olaraq, bu üç mərhələni nəzərdən keçirək:

*1. Təyinetmə mərhələsi (=T);*
*2. Canlandırma mərhələsi (=C);*
*3. Qərarqəbuletmə mərhələsi (=Q).*

Qeyd edim ki, yazımda bu üçlü modeli qısa olaraq "TCQ" kimi ifadə edəcəm. Belə ki, bu modeldə "T" birinci mərhələyə, "C" ikinci mərhələyə və "Q" isə üçüncü mərhələyə işarə edir.

## 2. Əxlaqi atributlar

Ənənəvi praktik əxlaqda, adətən, iki cür əxlaqi atributlardan, xüsusiyyətlədən söz açılır. Belə ki, onların bəzisi insanda müsbət, bəzisi isə mənfi sifət hesab olunur. Birincisinə "fəzilət", ikincisinə isə "rəzalət" deyilir. Məsələn, ədalət, doğru danışma, təvazökarlıq, əmanətdarlıq, yaxşılıq, səxavət, şükür, izzət, ümidlilik, şücaət, səmimilik, azadlıq və s. bu kimi müsbət xüsusiyyətlər "fəzilət" kateqoriyasına, zülm, yalan danışma, təkəbbürlülük, xəyanət, pislik, paxıllıq, naşükürlük, zillət, ümidsizlik, qorxaqlıq, ikiüzlülük, əsarət və s. bu kimi mənfi xüsusiyyətlərsə "rəzalət" kateqoriyasına daxildir. Qeyd olunan iki növ əxlaqi atributun funksiyasına gəldikdə, "fəzilət" kateqoriyasına daxil olanlar insan ruhunu mənəvi təkamülə, "rəzalət" kateqoriyasına daxil olanlarsa onu mənəvi tənəzzülə aparır. Bu əsasla, insan "özünütərbiyə"yə o zaman nail ola bilər ki, bacardığı qədər, "rəzalət" hesab olunan əxlaqi xüsusiyyətlərdən çəkinib, "fəzilət" kateqoriyasına daxil olan əxlaqi xüsusiyyətlərə sahib olsun. Məzələn, insan özünütərbiyədə bacardığı qədər yalan danışmaqdan çəkinməli və özünü doğru danışmaqla tərbiyə etməlidir ki, mənəvi təkamülə nail ola bilsin.



## 3. "T" mərhələsi

Özünütərbiyədə "TCQ" modelinin ilkin mərləlsəi "təyinetmə" mərhələsi adlanır. İnsan bu mərhələdə "fəzilət" atributunu "rəzalət" atrubutundan ayırmağa çalışır. Bunu isə "nəsnələrin öz ziddi ilə tanınması" prinsipi ilə həyata keçirir. Yəni insan, məsələn, ədaləti tanımaq üçün ilk olaraq onun ziddi olan zülmü təyin edərək onu tanıyır. Burada belə bir sual yarana bilər: Nə üçün insan ədalətin nə olduğunu bilmək üçün ilk olaraq zülmün nə olduğunu təyin etməlidir? Zənnimcə, belə bir təyinetmə prosesi aşağıdakı önfərziyyəyə istinad edir:

İnsan "maddi olan"lara "mənəvi olan"lardan daha çox meyillidir.

Qeyd olunan önfərziyyənin izahında deyirik: İnsanda müxtəlif nəsnələrdən həzz almaq üçün iki cür istedad, bacarıq vardır. Belə ki, bu bacarıqların bəzisi "maddi", bəzisi isə "mənəvi" hesab olunur. Məsələn, insan "maddi nəsnə" hesab olunan yeməkdən və içməkdən həzz alır və yaxud, insan "mənəvi nəsnə" sayılan əxlaqi dəyərlərdən, gözəl dostla ünsiyyətdən, hansısa bir dini və ya irfani inancdan həzz duyur. Digər tərəfdən, qeyd olunan bacarıqlar aktuallaşma baxımından eyni dərəcədə deyillər. Yəni onların təzahürü insana təsir edən təbiət və tərbiyə faktorları nəticəsində fərqli olaraq aktuallaşırlar, həyata keçirlər. Bu əsasla, maddi bacarıqların özəlliyi ondan ibarətdir ki, onlar insanda təbii olaraq inkişaf edirlər. Bu da o deməkdir ki, insan təbiət, quruluş etibarilə "maddi olan"lara meyillidir. Ancaq insandakı mənəvi bacarıqlar isə belə deyil, yəni onlar öz-özlüyündə təzahür etmirlər, əksinə, onlar münbit bir tərbiyə şəraitində üzə çıxıraq inkişaf edirlər. Məsələn, insandakı maddi istedad təbii olaraq onu -ac olduğu təqdirdə- başqasının ac oldğunu görə-görə yeməyi özünə saxlamağa təşviq edir. Halbuki başqa bir insan isə mənəvi istedadın onda tərbiyə əsasında inkişaf etdiynə görə, fədakarlıq edərək öz yeməyini ac olan adama everir. Birinci adamda mənəvi istedad inkişaf etmədiyinə görə, o, öz yeməyindən həzz duyur, ancaq ikinci adam isə, onda bu istedad inkişaf etdiyindən, fədakarıqdan həzz alır. Beləliklə, məlum olur ki, insandakı maddi istedadlar öz-özlüyündə təbii olaraq inkişaf edirlər, ancaq mənəvi

istedadlarsa bunun əksinə olaraq münbit tərbiyə şəraitində inkişaf edib təzahür edirlər. Bu da o deməkdir ki, insan "maddi olan"lara "mənəvi olan"lardan daha çox meyillidir.

Yuxarıdakı izaha əsasən, məlum olur ki, "rəzalət" hesab olunan atributlar, sifətlər "maddi olan"lar sırasına, "fəzilət" sayılan atributlar, sifətlər isə "mənəvi olan"lar sırasına daxildirlər. Odur ki, insan "maddi olan"lara daha çox meyilli olub, onları yaxşıca tanıdığına görə "fəzilət"ləri öz ziddi hesab olunan "rəzalət"lər vasitəsi ilə təyin edib tanımalıdır.

### 3. "C" mərhələsi

"TCQ" modelinin ikinci mərhələsinə gəldikdə, bu, "canlandırma" mərhələsi adlanır. İnsan bu mərhələdə təxəyyül gücündən istifadə edərək kimlərinsə, məsələn, zülm, xəyanət, simiclik, yalan və s. bu kimi "rəzalət" hesab olunan atributlara, sifətlərə məruz qaldığını təsəvvür edir və belə bir səhnəni öz zehnində canlandırdıqdan sonra, özünü onların yerinə qoymağa çalışır, yəni zehnində canlandırdığı ssenaridəki obrazların yerini dəyişir. Film, ədəbiyyat və şəxsi təcrübə insanın təxəyyül gücünün artmasına və nəticədə situasiyları effektiv şəkildə canlandıra bilməsinə imkan yaradan faktorlardandır. Örnək olaraq, gəlin, aşağıdakı bir neçə zehni eksperimenti (Thought experiment) nəzərdən keçirək:

a. Fərz edin, sizinlə vədələşirəm ki, filan gün, filan yerdə birgə görüşək. Yenə fərz edin ki, siz həmin gün, təyin olunan vaxtda görüş yerinə gəlmisiniz və hava da olduqca şaxtalıdır. Siz soyuqdan dona-dona məni gözlədiyiniz halda, mən isə vədimə əməl etməyib, öz evimdə isti peçin kənarında əyləşərək, məsələn, film izləyirəm.

b. Təsəvvür edin ki, qonşuluğunuzda maddi durumu yaxşı olmayan bir ailə yaşayır. Məsələn, uşaqlarına məktəb ləvazimatı ala bilmir, uşaqlar məktəbə köhnə paltar və cırıq ayaqqabı ilə gedirlər. Çox vaxt axşamlar yeməyə bir şey tapa bilmədiklərindən acqarına yatırlar. Ancaq mən isə, maddi durumum yaxşı olduğu halda, bilərəkdən simiclik edib həmin ailəyə yardım əli uzatmıram.

c. Zehninizdə belə bir situasiya təsvir edin ki, yaxın dostlarınızdan biri xəstə bir adamın ürək transplantasiyası üçün topladığı pulunu oğurlayıb və siz də bunu bilirsiniz. Pul sahibi sizdən hadisə barədə məlumatlı olub-olmadığını soruşur. Siz isə -ortada sizi təhdid edən hansısa bir təhlükə olmadığı halda- yalandan bu hadisədən xəbərdar olmadığınızı söyləyirsiniz.

Yuxarıda qeyd olunan hər üç zehni eksperimentdə, təxəyyül gücümüz sayəsində xəyanət, simiclik və yalan kimi "rəzalət" hesab olunan sifətləri öz zehnimizdə canlandıra bilirik. Onu da qeyd edim ki, rəzalətə məruz qalan adamların situasiyasını canlandırmaqla həmin situasiyanı bilmək tamamilə iki fərqli şeydir. Belə ki, bir var, insan həmin situasiya barədə sadcə olaraq quru bilgi əldə edir. Bir də var, canlandırma prosesində insan həmin situasiyaya daxil olaraq, onların nə kimi hisslər keşirdiyini anlamağa çalışır. Məsələn, birinci misalda (a) özümü şaxtalı havada soyuqdan dona-dona məni gözləyən adamın yerinə qoyub, nə kimi hisslər keçirdiyini canlandırmağa və təsəvvür etməyə çalışıram. İkinci misalda (b) mən özümü həmin uşaqların yerinə qoyub, nə kimi hisslər keçirdiklərini yaşamağa çalışıram. Nəhayət, üçüncü misalda isə (c) həmin xəstə, çarəsiz adamın yerində olduğumu təsəvvür edib, onun həmin an keçirdiyi hissləri yaşamağa çalışıram.

### 4. "Q" mərhələsi

Birinci və ikinci mərhələni uğurla keçdikdən sonra, növbə sonuncu, yəni üçüncü mərhələyə yetişir. Bu mərhələ "qərarqəbuletmə" mərhələsi adlanır. İnsan bu mərhələdə bir az sonra izah edəcəyimiz "qızıl qayda (The golden rule)"

əsasında rəzaləti bir kənara qoyaraq fəziləti seçməyi qərara alır. Əxlaq fəlsəfəsində "qızıl qayda"ya aşağıdakı kimi tərif verilir:



"Başqaları ilə elə davran ki, onların da səninlə oxşar situasyada o cür davranmasını istəyirsən".

Biz qızıl qaydada özümüzü hansısa bir davranışa məruz qalan başqa adamın yerində olduğumüzü təsəvvür edirik. Bu fonda əgər başqasına qarşı xüsusi bir davranış sərgiləsək və bununla belə, oxşar situasiyada bizimlə eyni cür davranılmasını istəməsək, bu zaman adıkeçən qaydanı pozmuş oluruq. Məsələn, fərz edin ki, yolla gedirik. Birdən, qarşımıza döyülərək hər şeyi əlindən alınan, yarıcan halda olan bir insan çıxır. Bu zaman zehnimizdə belə bir sual yaranır: "Ona yardım etməliyəmmi və ya məsələn, təcili tibbi yardıma zəng etməliyəmmi?" Bu zaman müəyyən bəhanələr axtararaq öz-özümə deyirəm: "Nə üçün o adama yardım etməliyəm? Axı, əlimdə işlərim

var. Özümü giriftar etmək istəmirəm" və s. Sonda öz-özümə deyirəm: "Ona yardım etməməyimin heç bir problemi yoxdur". Bundan sonra, əvvəlki situasiyanın tam əksini öz zehnimdə canladırmağa başlayıram. Belə ki, özümü həmin döyülən, yarıcan olaraq bir kənara atılan adamın yerinə qoyuram və təsəvvür edirəm ki, mən döyülmüşəm, hər şeyim əlimdən alınıb və yarıcan halda bir kənara atılmışam. Eyni zamanda həmin adamı da öz yerimdə fərz edirəm. Belə ki, yolla gedərkən, birdən, məni o vəziyyətdə görür. Bu vaxt özümdən soruşuram: "Bu adamın belə bir vəziyyətdə mənə yardım etməməsinin heç bir problemi yoxdurmu? Şübhəsiz ki, bu, belə deyil- problemlidir!" Elə isə mən bu halda həm məntiqi uyğunsuzluğa (Inconsistency), həm qərəzliliyə, həm də vicdansızlığa yol vermiş oluram. Halbuki məntiqi uyğunluq (Logically consistent) prinsipinə əsasən, bizim başqaları qarşısındakı davranışlarımız istəklərimizlə uzlaşmalıdır. Qərəzsizlik (Impartiality) prinsipinə görə, oxşar davranışlar barədə oxşar dəyərləndirmə aparmalıyıq. Vicdanlılıq (Conscientiousness) prinsipinə görə isə, davranışlarımızla istəklərimizi əxlaqi inamlarımızla uyğunlaşdırmalıyıq. Bu əsasla, əgər mən məntiqi uyğunluğa riayət edirəmsə, qərəzsizəmsə və vicdanlıyamsa, onda həmin adamı o vəziyyətdə buraxıb getməyəcəm və ona yardım etməyə çalışacam. Deməli, həmin adamın məni o vəziyyətdə buraxıb getməsi problemlidirsə, o zaman mənim də bu adamı o vəziyyətdə buraxıb getməyim problemlidir.

## 5. "TCQ" modelinin tətbiqi

Deyilən izahlara əsasən, gəlin, "TCQ" modelinin hər üç mərhələsini yuxarıdakı misallarımıza tətbiq edək.

### 5.1. "a" misalı

-"T" mərhələsi: "Nəsnələrin öz ziddi ilə tanınması" prinsipinə istinadən, vəfalılığı tanımaq üçün ilk olaraq onun ziddi olan xəyanəti təyin edərək onu tanıyıram. Burada vəfalılıq "fəzilət", xəyanət isə "rəzalət" kimi çıxış edir.

-"C" məhələsi: Təxəyyül gücümlə özümü şaxtalı havada soyuqdan dona-dona məni gözləyən adamın yerinə qoyub, nə kimi hisslər keçirdiyini canlandırmağa və təsəvvür etməyə çalışıram. Sanki həmin şaxta havadan donaraq gözləyən adam mənəm.

-"Q" mərhələsi: Bu zaman özümə belə bir sual verirəm: "Mənə qarşı xəyanət edilməsini istəyirəmmi?" Cavab isə aydındır: Xeyir, istəmirəm. Deməli, "qızıl qayda"ya görə, mən xəyanəti kənara qoyaraq vəfalılığı seçməliyəm. Yəni xəyanətə məruz qalmaq istəmirəmsə, onda gərək başqasına da xəyanət etməyəm. Bu isə o deməkdir ki, mən öz vədimə vəfalı olmalıyam.

### 5.2. "b" misalı

-"T" mərhələsi: "Nəsnələrin öz ziddi ilə tanınması" prinsipinə istinadən, səxavəti dərk etmək üçün ilk olaraq onun ziddi olan simicliyi təyin edib, onu tanıyıram. Burada səxavət "fəzilət", simiclik isə "rəzalət" kimi çıxış edir.

-"C" məhələsi: Təxəyyül gücümlə özümü həmin uşaqların yerinə qoyub, onların nə kimi hisslər keçirdiklərini yaşamağa çalışıram. Sanki, həmin uşaqlardan biri mənəm. Belə ki, məktəbə köhnə paltar və cırıq ayaqqabı ilə gedirəm. Çox vaxt da, axşamlar yeməyə bir şey olmadığından acqarına yatıram.

-"Q" mərhələsi: Bu zaman özümə belə bir sual verirəm: "Mənə qarşı simiclik edilməsini istəyirəmmi?" Cavab isə aydındır: Xeyir, istəmirəm. Deməli, "qızıl qayda"ya görə, mən simicliyi kənara qoyaraq səxavəti seçməliyəm. Yəni özümə qarşı simiclik edilməsini istəmirəmsə, onda başqasına qarşı da simiclik etməməliyəm. Bu isə o deməkdir ki, mən səxavətli olmalıyam.

### 5.3. "c" misalı

-"T" mərhələsi: "Nəsnələrin öz ziddi ilə tanınması" prinsipinə istinadən, doğru danışmağın nə olduğunu dərk etmək üçün ilk olaraq onun ziddi olan yalan danışmağın nə olduğunu təyin edib, onu anlayıram. Burada doğru danışma "fəzilət", yalan danışma isə "rəzalət" kimi çıxış edir.

-"C" məhələsi: Təxəyyül gücümlə özümü həmin xəstə, çarəsiz adamın yerində olduğumu təsəvvür edib, onun həmin an keçirdiyi hissləri yaşamağa çalışıram. Sanki, ürək transplantasiyasına girməli olan çarəsiz xəxtə mənəm.

-"Q" mərhələsi: Bu zaman özümə belə bir sual verirəm: "Mənə yalan deyilməsini istəyirəmmi?" Cavab isə aydındır: Xeyir, istəmirəm. Deməli, "qızıl qayda"ya görə, mən yalan danışmağı kənara qoymalı və doğru danışmağı seçməliyəm. Yəni özümə yalan deyilməsini istəmirəmsə, onda başqasına da yalan deməməliyəm. Bu isə o deməkdir ki, mən doğru deməliyəm.

### 6. Nəticə

Bura qədər deyilənlərdən aydın olur ki, insan məntiqi uyğunluğa riayət edərsə, qərəzsiz və vicdanlı olarsa, bu zaman "TCQ" modeli əsasında "rəzalət" hesab olunan sifətlərdən uzaqlaşaraq, "fəzilət" hesab olunan sifətlərə yiyələnə və nəticə etibarilə, effektiv şəkildə özünütərbiyə nail ola bilər. Bu əsasla, iddia etmək olar ki, "TCQ" modeli özünütərbiyə mexanizmini şərh edən effektiv bir metoddur.

**Emin İmanlı**

< Qovulmuş şeytandan Allah'a sığınıram >

**"(Bu Quran) sənə nazil etdiyimiz mübarək (xeyir-bərəkətli) bir Kitabdır ki, (insanlar) onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri də (ondan) ibrət alsınlar!"**

**(Sad surəsi, 29)**

# DİN SİYASİLƏŞƏNDƏ...



İslam dini zühur etdiyi gündən indiyədək bu səmavi dini ağır hallara salan amillərdən biri də dinin siyasiləşdirilməsi, ondan müəyyən siyasi məqsədlər üçün istifadə edilməsi olmuşdur. Dinin siyasiləşdirilməsi əslində dini radikallığın bir nümunəsi kimi də təqdim edilə bilər. Din siyasiləşəndə çox acı halların şahidi oluruq. Buna misal olaraq dindar kəsimin öz Dövləti və Dövlətçiliyinə düşmən gözü ilə baxması, daxili münaqişələrin meydana gəlməsi, fitnə-fəsad və s. qeyd etmək olar.

Hər bir İslam məzhəbi və təriqətinin özünə xas olan radikal cərəyanları vardır. Bu qəbil radikal cərəyanlar dinə birtərəfli yanaşaraq onun yalnız mübarizə və cihad göstərişlərini qabardır, İslam dininin mərhəmət və şəfqətlə dolu göstərişlərini isə unudurlar.

Uzun illər boyu hər zaman acı bir hadisənin şahidi olmuşuq: Kimsə həyatda üzləşdiyi hadisə və ya digər amillər nəticəsində dinə üz tutur. Bundan sonra isə birbaşa İmam Hüseyn (ə) və Kərbəla hadisəsi ilə natamam tərzdə tanış olaraq hər şeyi və hər kəsi İmam Hüseyn (ə) və Yezid qarşıdurması, hər bir hadisəni Kərbəla hadisəsi kimi izah etməyə çalışır! Məncə bu, sözün həqiqi mənasında dinin siyasiləşdirilməsinin acı nümunəsidir.

Amma onlar unudurlar ki İslam dini yalnız İmam Hüseyn (ə) və Kərbəla hadisəsində xülasə olunmur. Bu dində hər şeyin fövqündə dayanmış və başdan sonadək əxlaq və mərhəmət dolu tövsiyələr verən Qurani-Kərim kimi bir səmavi kitab da var.

Bu dində öz sözünə əsasən yalnız əxlaq gözəlliklərini kamilləşdirmək üçün göndərilmiş həzrət Məhəmməd (s) adlı bir Peyğəmbər də var!

Bu dində I Xəlifə Əbu-Bəkr, II Xəlifə Ömər ibn Xəttab və III Xəlifə Osman ibn Əffan ilə səmimi davranmış, onlara öz məsləhət və tövsiyələrini təqdim etmiş, gündəlik vacib namazlarını məhz onlara iqtida etmiş həzrət Əli (ə) adlı bir fədakar da var!

Bu dində Müaviyə ibn Əbu-Süfyanla sülh sazişi imzalamış Həsən Müctəba (ə) kimi bir İmam da var!

Bu dində ömrünü duaya həsr etmiş İmam Zeynəl-abidin (ə) adlı bir İmam da var!

Bu dində ömrünü yalnız elm tədrisi və maarifləndirməyə sərf etmiş İmam Baqir (ə) və İmam Sadiq (ə) adlı İmamlar da var!

Bu dində Xəlifə Məmunun xilafətini dəstəkləmiş və ona canişin olaraq beyət etmiş İmam Rza (ə) kimi İmam da var!

Bu dində ömrü boyu din sahəsində elə də ciddi fəaliyyət göstərə bilməmiş İmam Kazim (ə), İmam Cavad (ə), İmam Hadi, İmam Həsən Əsgəri (ə) kimi İmamlar da mövcuddur!

Və nəhayət bu dində 57-58 illik ömrünün yalnız son aylarında haqsız yerə zülmə və təcavüzə məruz qalmış və buna görə də özünü müdafiə edərək şəhid olmuş İmam Hüseyn (ə) adlı bir İmam da var!

İslamı, onun əsası sayılan Quran və Sünnəni mükəmməl şəkildə öyrənməyən "alim"lər hər şeyin üstünü örtərək İslamdan yalnız Kərbəla hadisəsini xalqa çatdırmağa və beləliklə də dini siyasiləşdirməyə cəhd edirlər. İndiyədək din adı altında həyata keçmiş bir çox qarşıdurmalar və hadisələr də əslində İslamın siyasiləşdirilməsi və onun yalnız İmam Hüseyn (ə) və Kərbəla hadisəsində xülasələşdirilməsi prosesinin acı təzahürüdür. Hətta, gülməli və düşündürücü məqamlardan biri iqtidarla müxalif olan siyasət adamlarının guya dinə və dindarlara can yandırması adı altında meydana atılıb Dövlətin ünvanına kəskin sözlər deməsi, üstəlik onların da İmam Hüseyn (ə) və Kərbəla hadisəsindən öz siyasi mənafeləri üçün istifadə etməsidir.

Dinin siyasiləşdirilməsi heç kəsə xeyir gətirmir. Əslində İslamı siyasiləşdirənlər və ondan öz siyasi və maddi məqsədləri üçün istifadə edənlər bunun nəticəsində tökülən qanlara, tapdalanan şərəf və hörmətlərə və bütün fitnə-fəsadlara cavabdeh sayılırlar.

Unutmayaq ki dində radikallıq və ifrata varmaq insanların hörmətdən düşməsi, qardaşlar arasında fitnə-fəsad, qarşıdurma və hətta haqsız yerə qanların axıdılması kimi acı nəticələrlə sona yetir. Bunu da unutmayaq ki,

dində radikallıq və ifrata varmaq sonda bu sahədə məhdudiyyətlərə səbəb olur. Çünki hər bir iqtidar və dövlət öz milli mənafei və daxili təhlükəsizliyi qorumaq hədəfi ilə radikalların məhdudlaşdırılması üçün müəyyən addımlar atır və xüsusi qanunlar təsdiq edir.

Din alimləri və ilahiyyatçılar, eləcə də dindar kəsim dini siyasiləşdirməkdən ciddi şəkildə çəkinməli və bu ülvi və müqəddəs mövzuya səmimi yanaşmağa çalışmalıdırlar. Əlbəttə, bu çağırış ilk öncə və xüsusilə din alimləri və ilahiyyatçılara məxsusdur. Çünki dindar kəsimə dini göstərişlər və təlimləri çatdıranlar məhz onlardır.

Onlar İslam dininin təməli sayılan Quran və Sünnəni mükəmməl şəkildə öyrənməli və din adından çıxış edərkən heç bir kənar amildən təsirlənmədən danışmalıdırlar. Belə olan halda cəmiyyətdə acı hadisələrin sayı azalar və müqəddəs dinimizin adına da hər hansı bir xələl gəlməz.

İslam dini bizi çətin vəziyyətə salmaq və məhv etmək üçün deyil, əslində üzərimizdə olan ağır yükləri yüngülləşdirmək və bizi çətinliklərdən xilas etmək üçün gəlmişdir: "O (Peyğəmbər) onlara yaxşı işlər görməyi buyurar, pis əməlləri isə qadağan edər, onlara pak şeyləri halal, murdar şeyləri isə haram edər. Onların ağır yüklərini yüngülləşdirər və onları buxovlardan xilas edər. Ona iman gətirən, onu dəstəkləyən, ona kömək edən və onunla göndərilmiş nurun (Quranın) ardınca gedənlər isə nicat tapanlardır". ("Əraf" surəsi, ayə: 157).

Ayənin məzmunu və bəzi dini cərəyanların fikirlərini nəzərə alarkən acı bir həqiqət ortaya çıxır: Həqiqətən də bəzi dini baxışlar əslində insanların adi həyat tərzini iflic etməyə və insanlara çətin və acı həyat tərzi yaşatmağa xidmət edir.

Qurani-Kərim inanclı insanlara həm radikallıq və ifrata getməyi, həm də süstlük və təfritə getməyi yasaqlamışdır. Çünki bu dinin əsas qaynağı sayılan Quran müsəlmanları "Orta Ümmət" olaraq təqdim etmiş və beləliklə də dini etiqadlar, əməllər və baxışların yalnız orta (mötədil) səviyyədə olmasının zəruriliyini təsdiqləmişdir: "Beləliklə Biz sizi orta bir ümmət etdik ki, siz insanlara şahid olasınız, peyğəmbər də sizə şahid olsun..." ("Bəqərə" surəsi, ayə: 143).

İslam Peyğəmbəri (s), Onun pak Əhli-beyti və nəcabətli səhabələri də öz sözlərində yalnız mötədilliyi tövsiyə etmiş və öz mötədil həyat tərzi ilə hər kəsə nümunə olmuşlar.

**İlqar İsmayılzadə**
(İlahiyyat elmləri doktoru)

## BİR HƏDİSİN İŞIĞINDA



# "DAXİLİNİ BİLMƏDİYİN KƏSİN DOSTLUĞUNA RƏĞBƏT BƏSLƏMƏ! "

**ƏMİRƏL-MÖMİNİN İMAM ƏLİ (Ə).**

***Dostluq hər bir insanın ehtiyac duyduğu, onsuz keçinmədiyi bir dəyərdir. Dostluq məhfumu dəyərli olsa da nümunə baxımından ideal dost, praktiki müstəvidə həqiqi dostluq çətin qazanılır və ya az tapılır. Dostluğun nə olduğunu, necə dost qazanıldığını izah etmək fikrində deyiləm, buna maraqlı olanları Dale Careneginin "How to win friends and influence people" adlı kitabını mütaliə etməyə dəvət edirəm.***

***Qeyd edilən hədis mehvəri əsasında bunu qeyd etmək istərdim ki, bütün dostluqlar, hətta möhkəm və uzun müddətli dostluqlar, müəyyən böyük sınaqlardan sonra büdrəyir, sonluq tapır. Bununsa əsas amili insanların daxili aləmlərinin məhz böyük hadisələrdə təzahür etməsidir. Məsələn, bir nəfərin gəmi ilə səyahəti sevdiyini, bu yöndə heç bir qorxusunun olmamasını dilə gətirməsi mümkündür. Amma həmin şəxs gəmi ilə səyahətə çıxdıqda, heç özünün də əvvəllər aşkarlamadığı bir qorxu ilə "batmaq" qorxusu ilə qarşılaşır. Daha öncə gəmidə səyahəti təcrübə etmədiyi üçün bunun o qədər də qorxulu olmadığını düşünürdü, amma təcrübə zamanı artıq həqiqətin ayrı cür olduğu üzə çıxır.***

***Dostluqda da bu şərtdir. Kimliyindən asılı olmayaraq biri sizə dostluq elan edirsə - tutaq ki, həmin halda tam səmimidir və daxili dünyasından özünün də xəbəri yoxdur – siz buna inanmazdan öncə onu sınaqdan keçirməlisiniz. Bu sınağın təşkili sizin tərəfinizdən olması zərurəti də yoxdur. Ən azından bu sözü tam əmin olmayın və müəyyən fürsət gözləyin ki, dediyi sözlər praktiki sübuta yetsin. Yoxsa, ona inansanız və hər hansı bir hadisədə bunun belə olmadığı üzə çıxsa, sözsüz ki, mənəvi, psixoloji travma alacaqsınız.***

***Yaxud, siz özünüzə dost seçmək istəyirsinizsə, dostluğunuzu bildirmədən öncə, qarşı tərəfin dostluğa layiq olduğunu müəyyən etmək üçün fürsət gözləyin. Məhz sınaqdan keçmiş dostluqlar möhkəm və davamlı olur.***

***Nəticə: Dost seçərkən və ya kiməsə dost olarkən daha öncə təcrübə etmədiyiniz vədlər verməyin. Bu həm sizin üçün həm də dostunuz üçün faydalı olar.***

# BİR DOSTUN MƏKTUBU

Zəmanə getdikcə pisləşir. Yaşamaq günü-gündən ağır gəlir insana. Bəzən fikirləşirsən ki, dünyanın ağrı-acılarına tab gətirib 70-80 il ömür sürənlərə, doğrudan da, cənnət vacibdir. Bir hədisə görə, insan dünyada rahatlıq axtarmaqdadır, o isə heç yaradılmayıb, vücuda gəlməyib...

Hə, zəmanədən danışırdım. Zəmanə pisləşib, insanlar vəfasızlaşıb. İndi düşməndən də artıq dostdan qorxmaq lazımdır. Dünənə qədər səninlə çiyin-çiyinə addımlayan birisi bir günün içərisində qanını tökməyə hazır olur. İndi kiməsə yaxşılıq etmək böyük bir risk altına girmək deməkdir. Yaxşılıq etdiyin insanlar digərlərindən qat-qat artıq təhlükəlidirlər.

Əlqərəz, bu yazıda məqsəd diqqətinizi bir dostun məktubuna yönəltməkdir. Yeni tədris ili başlayar-başlamaz Məcid müəllim* öz köhnə ənənəsini davam etdirərək, yenə də axirüz-zamandakı ağır şəraitdən danışdı və sözüfedən məktubu çantasından çıxarıb bir-bir hamıya göstərdi.

Doğrudan da dözüləsi hal deyil. 21-ci əsr adamı bütün elmi-texniki nailiyyətlərinə rəğmən, nədən bunca vəfasız olmalı? Özünün ən yaxın və ən sadiq dostunu asanlıqla unutmaq, illərlə xatırlamamaq faciə deyil, bəs nədir? Bundan artıq başınızı ağrıtmayım, məktub budur:

“Bu gün səhər yuxudan oyandığında sənə baxdım. Bir neçə sözlə olsa belə, mənimlə danışacağına, dünən həyatında baş verən gözəl hadisələr üçün mənə təşəkkür edəcəyinə inanırdım. Lakin gördüm ki, başın çox qarışıqdır. Geyinmək üçün özünə paltar seçirdin...

O yan-bu yana qaçıb hazırlaşdığın zaman dedim bəlkə bir an vaxt tapıb dayanacaq və mənimlə salamlaşacaqsan. Amma yenə də başın öz işlərinə çox qarışmışdı.

Bir dəfə gözləməyə məcbur oldun. 15 dəqiqəyə yaxın yalnız bir stulda oturmaqdan başqa işin yox idi. Amma onda da qəfildən yerindən qalxdın, telefona tərəf qaçıb hansısa dostuna zəng vurdun və bu vaxtı da onunla danışmaqla keçirdin.



Bütün gün boyu səbir edib gözlədim. Amma güman edirdim ki, bu qədər işin içində ikən mənimlə danışmağa vaxt tapmayacaqsan.

Həmişə problem içindəsən: ev, iş, maliyyə və sair problemlər. Həmişə narahatsan, iztirab və sıxıntı içindəsən. Və nə yazıq, nə yazıq, bilmirsən ki, məni yad etmək sənə rahatlıq gətirir, iztirabını azaldır...

Bir dəfə hey sağ-soluna baxırdın. Dedim yəqin mənimlə danışmadığından, mənə sarı baxmadığından belə edirsən. Sonra gördüm ki, yox, bu kiçik beyninlə hər şey haqqında düşünürsən, məndən başqa.

Axşam evinə qayıtdın, yuyunub-təmizləndin, sonra gördün ki, hələ xörəyin hazır deyil. Bir qədər boş vaxtın var idi. Qonaq otağına daxil oldun. Nə işlə məşğul olacağını səbirsizliklə gözləyirdim. Ümidvar idim ki, heç olmasa indi yadına düşəcəyəm, ən azı indi özünün ən yaxın dostunu xatırlayacaqsan. Lakin gördüm ki, birdən televizorun qabağında əyləşdin, az sonra isə gülüş səsin otağı bürüdü. Və sən yenə də mənimlə danışmadın.

Hər gün saatlarla vaxtını beləcə keçirirsən, növbənöv verilişlərə baxırsan. Onlara baxarkən gah gülür, gah kədərlənir, gah da həyəcanlanırsan. Bəzən xoşuna gəlməsə, ürəyincə olmasa belə, baxır və dəyərli vaxtını beləcə keçirirsən... Mən səbirsizliklə səni gözlədim, sənsə elə televizora baxa-baxa xörəyini yedin.

Yatmaq vaxtı çatdı. Çox yorğun idin, yatağına girən kimi yuxu tutdu səni...

Eybi yox, yəqin iş-gücünün çox olduğundan unutmusan məni. Amma mən çox səbirliyəm. O qədər səbirliyəm ki, bir gün yox, bir ay yox, illər, onillər keçsə belə gözləyəcəyəm. Nə vaxtsa məni yada salacağına həmişə ümidvar olacağam. Ömrünün sonuna qədər nə vaxtsa mənə əl etməni, baş tərpətməni və ya ürəyində azacıq olsa belə, minnətdar olmanı gözləyəcəyəm. Mən həmişə yanında olacaq, hər an sənə kömək etməyə hazır duracağam; sən görməsən, eşitməsən, duymasan da.

Ah, dinləyici olmayan yerdə danışmaq nə qədər çətindir! Amma eybi yox, bəlkə bir gün həyatın keşməkeşlərindən ayılıb məni də dinlədin. Bəlkə bir gün azacıq vaxt da mənə ayırdın. Mən gözləyəcəyəm, sənə eşq və məhəbbətlə dolu olan bütün vücudumla...”

Dostun kimliyi yəqin ki, aydındır. Saysız-hesabsız gecələri, gündüzləri ixtiyarımızda qoyan Rəbbimiz hər günün sadəcə 20 dəqiqəsini onunla söhbətə ayırmağımızı istəyib. Bu da ondan ötrüdür ki, bizim özümüzün buna ehtiyacımız var.

Hardasan, ay Camal əmi?! Kifayət qədər pulunu alıb səninçün iki protez diş düzəldən stomatoloqa nə qədər təşəkkür etdin! Amma tez də anladın, anladın ki, təmənnasız olaraq sənə 32 sağlam diş verən Yaradana bu işdən ötrü heç vaxt təşəkkür etməmisən. Görəsən biz necə, Allahın verdiyi hər bir nemət üçün ən azı bir təşəkkür etmişikmi?

**Vüsal Hüseynzadə**

** Yazının əsas süjeti iranlı tarixçi-sosioloq Doktor Məcid Kafinin bloqundan götürülmüşdür.*

# "DİNDAR"LIQ YOXSA "DİNÇİ"LIK?!

**"Sizin davranışınıza baxıb müsəlmanlığa heyran olan insan yoxdursa, o zaman imanınızı bir daha gözdən keçirin"**

***Hz. Məhəmməd Peyğəmbər (s)***

***Dindar ərəb və farsca ola iki kəlimədən (din dar) alınan bir sözdür və din sahibi olan, dini yaşayan inanclı şəxsə deyilir.***

***Təəssüflə yaşadığımız cəmiyyətdə bəzən dindarlıq bir tək müəyyən geyimlərlə və zahiri görkəmlərlə maşının üzərində və nömrəsində müəyyən yazı və simvollarla tanınıb.***

***Dinin sahibi olan Allah isə dini kitabımızda buyurur: "Hər kim – kişi, yaxud qadın imanı olan halda yaxşı iş görsə, onu şübhəsiz, (dünyada) pak bir həyatla yaşadacaq və (axirətdə) mükafatlarını çox gözəl olan əməllərinin müqabilində verəcəyik". ("Nəhl" 97).***

***Bəzən də dindar dinin vacibatına əməl edənə deyilir. Ancaq Quran ayələrinə və hədislərə nəzər saldığımız zaman görürük ki, dindar təkcə namaz qılıb oruc tutan, zəkat verib həccə getməklə kifayətlənən şəxs deyil.***

**Bəs dindar kimdir?:**

Allahın Rəsulu (s) buyurur: "Həqiqi mömin (dindar) o kəsdir ki, digər möminlər onu öz mallarına və canlarına əmanətdar bilsinlər". "Müsəlman o şəxsdir ki, bütün müsəlmanlar onun dilindən, əlindən amanda qalarlar".

Dindar, Allahın varlığı ilə yanaşı dinin əqidəvi üsullarına ağıl və məntiqə əsaslanaraq inam gətirəndir;

İnsanlığa əmanət və ülgü olan Peyğəmbər (s) və məsum imamların (ə) davranışını örnək götürəndir;

Bəşəriyyətə həyat verən Quran və hədislərin tövsiyələri ilə əxlaqlanan, tərbiyələnəndir;

Dinin ehkam və göstərişlərini olduğu kimi öyrənib həyatında əməl və tətbiq edəndir;

Nəfsini, tamahını, şəhvətini idarə edən, rəzil sifətlərə qələb çalan, təqvalılıq mərtəbəsinə yiyələnmək uğrunda öz üzərində işləyəndir.

Sözü, özü, qəlbi, əməli düz olan, vicdanla yaxşıya yaxşı, pisliyə pis deyib, insanlarla və hətta heyvanlarla rəhmli, insaflı və ədalətli davranandır.

Yıxılanı qaldıran, məzlumun yanında olan, yetimi, kimsəsizi, xəstəni və yoxsulu imkanı dairəsində xatırlayan, yardım əlini uzadandır.

Ədəb çərçivəsində yanlış yolda olana yol göstərən, dürüstlüyə dəvət edən, yaradanın yaratdıqlarına sevgi



göstərib yaradana xatir xidmət göstərəndir.

Haram yeməyən, ara vurmayan, yalan danışmayan, qeybət edib sözgəzdirməyən, əksinə islah etməyə, barış və sevgidolu bir ortam yaratmaq uğrunda əlindən gələni əsirgəməyəndir.

Böyük kiçik, qohum qonşu, ata-ana, övlad, müəllim, tələbə haqqı bilən, rəftarında sərhəd tanıyan, həddini aşmayan, insanları dili ilə acılamayandır.

Bəzən məndən soruşurlar ki, belə dindarlıq olarmı?

Məzhəb ayrıseçkiliyi salıb, insanları parçalayıb, fitnə törədib, birliyi pozmaqla;

Namaz qılmayıb oruc tutmayan müsəlmana gözəl təbliğ etməkdənsə düşmən gözü ilə baxıb, onları təhqir edib aşağılamaqla;

Özünü dinin yiyəsi hesab edib, ifratçı mühafizəkar davranmaq, cəmiyyətdən fərqli olduğunu düşünərək təcrid olunmaqla;

Dövlətə, millətə və ya ətrafındakılara qarşı şübhəli yanaşıb güvənməmək, kin bəsləmək, hər şeyi pisə yozmaq, yaxşılar içində pislik axtarmaqla.

Əlbəttə yəqin ki, dini mənbəyindən öyrənən oxucular da bu qənaətdədirlər ki, din mərhəmətə, sevgiyə, həmrəyliyə, birliyə, hümanistliyə, optimistliyə, doğruluğa, dürüstlüyə, sayqıya, yardımlaşmağa, elmə, əxlaqa, ədəb və ərkana dəvət etdiyinə görə - belə dindarlıq olmaz.

Bəs dinçilik nədir?

Dinçilik isə dini sırf ideoloji məktəb halına gətirən, dindən öz məqsədləri üçün suistifadə edən, dini

göstərişlərə zahirdə əməl edib həyatında dini yaşamayan, səmimi olmayan iman və ibadətinə kifayətlənib ictimai günahlara və haramlara laqeyd qalandı. Onlar İslamın ruhunu anlamayıb cismini əzbərləyənlərdi. Düşüncə əsasında Allahı ibadətə layiqli bildiklərindən deyil sırf göstəriş olduğu üçün namaz qılanlardı. Dinçilər bəzən dinin kitabını istədiklərikimi yozub törətdikləri cinayətlərə bəraət qazandırmaq üçün çirkin əməllərinə din donu geyindirənlərdi.

Dini çirkin siyasi məqsədlərə alət edənlər, fitnə fəsad törədənlərdi. Fanatlıq və ifratçılığa qapanıb dünyada terror və ekstremizmlə məşğul olanlardı. Dinə fobiya, qorxu yaranmasına şərait yaradıb insanlarda dinə qarşı nifrət yaranmasına səbəb olanlardı. İnsanları məsciddən hürküdənlərdi.

Buna görə də tam məsuliyyətlə demək olar ki, dinçilər dinsizlərdən çox dinə zərər vururlar. Əslində bu qəbil "dinçi"lərin dinsizlər və ateizmin yaranması və inkişafında misilsiz rolu vardır. Bu gün dünyada olub bitənlərə baxdığımız zaman dindar və dinçinin fərqi daha tez anlaşılır.

Yazımın sonunda bir sözlə demək istərdim ki, "Həqiqi dindarlıq həqiqətən də Allahını, Onun yaratdıqlarını, dövlətini, xalqını sevən onlara xəyanət deyil xidmət göstərən inanclı müsəlmandır". Allah bizi həqiqi iman gətirib saleh əməl sahibi olan dindarlardan qərar versin. Amin!

**Hacı Qurban Murquzov**

# Barmaq izlərinin sirri və Qurandakı heyrətamiz riyazi dəqiqlik...






Etiraf etməliyik ki, qanuni oğrular bu gün cəmiyyətə çox böyük nüfuz etməkdədir və demək olar ki, söz sahibidirlər. Hətta bir çox dövlətlər hazırda mafiya (oğru) qanunları ilə idarə olunur. Bu səbəbdən cəmiyyətdə kriminal hadisələr çoxalmışdır (etiraf edək ki, ən çox oxunan da dedektiv janrında olan əsərlərdir). Bütün bunları nəzərə alıb, kriminal aləmə elmi - ladunla bir nəzər salmaq qərarına gəldim.

Qeyd edim ki, bu aləmin əsas "atributu" barmaq izləridir. Odur ki, sahəni işıqlandırmağa da buradan başlayaq. Bildiyimiz kimi, barmaq izlərini araşdıran dünyəvi elm DAKTİLOSKOPİYYA adlanır. Bütün elmlərin mənbəyi Qurandadır. Bəs Daktiloskopiyya necə? Bu elm müqəddəs kitabda necə əksini tapıb?

Nəzərinizə çatdırım ki, insanın anatomik quruluşunda olan saysız-hesabsız hikmətlərdən biri də barmaq izləridir. Dünya yaranandan nə qədər insan gəlib-getsə də, heç birinin barmaq izləri bir-birinə bənzəmir. Quranda bu mövzuda cəmi bir ayədə söhbət açılaraq bildirilir ki, qiyamət günü insanlar dirildilərkən, həmin izlər olduğu kimi bərpa olunacaq və əməlləri ona həmin izlərlə sübut olunacaq: "Bəli, Biz onun barmaqlarını da (barmaq izlərini) düzəltməyə qadirik!" Quran, 75:4.

Elmi - ladun mənə işarə verdi ki, Quranın birinci ayəsindən başla, 75-ci surənin 4-cü ayəsinə qədər say, gör nə görəcəksən. Mən də tənbəllik etməyib saymağa başladım. Həmin barmaq izlərindən bəhs edən yeganə ayəyə çatanda gördüm bu Quranın 5555 - ci ayəsidir. Deyəcəksiniz ki, nə olsun? Buradakı hikmət ondan ibarətdir ki, insanda iki əl və iki ayaq olmaqla, hər birində 5 barmaq vardır. Bunların dördünü yanaşı qoyduqda 5555 ədədi alınır ki, bu da "Qiyamət" (75) surəsinin 4 - cü ayəsini göstərir: "Bəli, Biz onun barmaqlarını da (barmaq izlərini) düzəltməyə qadirik!" Quran, 75:4.(5555-ci ayə)

Bu və digər hikmətlər onu göstərir ki, Quranın sözləri Allaha məxsus olduğu kimi, onun düzülüşü və nömrələnməsi də Rəbbimə məxsusdur.

Odur ki, əməllərinizə diqqət edin. Çalışın ki, barmaq izləriniz ancaq gözəl əməllərin üzərində qalsın. Çünki hansı vəzifədə işləməyinizdən asılı olmayaraq, bir gün mütləq əməlləriniz araşdırılacaq!

**Paşa Yaqub**

# QURAN HƏQİQƏTƏN, ALLAH SÖZÜDÜRMÜ?



< Qovulmuş şeytandan Allah'a sığınıram >

**"(Bu Quran) sənə nazil etdiyimiz mübarək (xeyir-bərəkətli) bir Kitabdır ki, (insanlar) onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri də (ondan) ibrət alsınlar!"**
**(Sad surəsi, 29)**

Quranın Allah sözü olmasına birinci dəlil elə onun özüdür: bədii gözəlliyi, səlisliyi, rəvanlığı, xüsusi ritmlərə uyğun ahəngdarlığı, əsrarəngiz harmoniyası, eyni zamanda zəngin məzmunu. Və nəzərə alaq ki, bütün bunlar 23 il ərzində nazil olaraq yazılmış bir kitabın bütün hissələrində yüksək səviyyədədir. Halbuki hər bir insan, nə qədər istedadlı olsa da, yaza-yaza püxtələşir, onun 23 ilin əvvəlində yazdığı sonunda yazdığı ilə müqayisəyə gəlmir. Amma Quranda belə bir şey yoxdur, forma və məzmun sarıdan o



qədər mükəmməldir ki, təkrar-təkrar oxumaq da ürəkaçandır və əsla yormur, bezdirmir. Təbii ki, bunları daha yaxşı dərk etmək üçün ərəb dilinin incəliklərinə vaqif olmaq lazımdır. Və məhz buna görədir ki, Quran 1400 ildən artıqdır inadkar inkarçıları mübarizəyə çağırır: "Yoxsa: "(Peyğəmbər) onu özündən uydurdu!" – deyirlər. De: Əgər doğru deyirsinizsə, ona bənzər bir surə gətirin və Allahdan başqa, kimə gücünüz çatırsa, onu da (köməyə) çağırın" (Yunus-38). Məlum məsələdir ki, bir insan özünə bu qədər güvənib bütün tarixə meydan oxuya bilməz.

Gələcəyə dair bəzi xəbərlər də uyğun iddiaya növbəti arqumentdir. Belə xəbərlərin birində deyilir: "Rumlular (Ərəbistana) ən yaxın bir yerdə (iranlılara) məğlub oldular. Lakin onlar məğlubiyyətlərindən sonra bir neçə ilin içində qalib gələcəklər" (Rum-2-4).

Quranın həqiqətən Allah kitabı olduğunu sübut edən əsas dəlillərdən biri də onu gətirənin, yəni Məhəmməd peyğəmbərin (s) dürüstlüyündən, düzdanışanlığından və əmanətdarlığından ibarətdir. O hələ cahiliyyət dövründə əmanətdar adını qazanmışdı, dövrünün adamlarından seçilir, heç bir yaramaz işə yaxın durmurdu. Bunu onu tanıyanların hamısı, haqqında yazan bütün tarixçilər təsdiqləyirlər. Bu qədər qəti məsələni inkar etmək isə alimlik deyil, skeptiklikdir, şəkkaklıq xəstəliyidir. Hansı səbəbdən bütün İslam tarixçilərinin – İbn İshaqın, Yəqubinin, Məsudinin, Təbərinin, İbn Hişamın, digər alim, səhabə və rəvayətçilərin yekdilliklə qəbul etdikləri məsələ doğru sayılmasın?! Əgər belə bir məsələ qəbul olunmasa, hansı tarixi məsələ qəbul oluna bilər?! Bu növ yanaşma hansı elmi meyarlara uyğundur?!

Məhəmməd peyğəmbərin (s) xüsusiyyətləri arasında onun yazıb-oxuma bilməməsi bu baxımdan özəl diqqətə layiqdir. Bu məsələ də elmi və tarixi baxımdan, şübhəsizdir və onun hətta peyğəmbərlikdən sonra da nəsə oxuyub-yazması qeyd olunmamışdır. Belə bir insanın forma və məzmun etibarilə bu qədər zəngin bir kitab yaza bilməsi isə əsla ehtimal olunmur.

İddiaya başqa bir dəlil Peyğəmbərin buyurduğu hədislərin Quranla müqayisəsidir. Bu hədislər üslub, bədiilik və zənginlik baxımından Qurandan çox-çox geridə durur və bu kitabın məhz Allah kəlamı olduğunu bir daha təsdiqləyir.

**Vüsal Hüseynzadə**

# VƏHHABİLƏRIN BEYNƏLXALQ TƏBLİĞ METODLARI

Əziz oxucular, Vəhhabi dedikdə həmişə narahatçılıq hissi duyulur. Yaşadığmız dövrü nəzərə alsaq fikrimizə Əfqanistan, Pakistan, İraq, Suriya və digər ölkələr gəlir və eyni zamanda onların bu ölkələrdə etdikləri vəhşiliklər! Bu üzdən də, bu məxluqlar, iyirminci əsrin axırlarında, Vəhhabi adı ilə səslənməkləri özlərinə də xoş gəlmədi. Başladılar ki, yox,biz Vəhhabi deyilik! Biz soruşanda ki, bəs siz kimsiniz? Bu zaman dedilər: Sələfi-müslman, yəni İslam Peyğəmbərinin (ə) əsl davamçıları! Bu zaman insanın zehninə gələn birinci sual, əgər həqiqətən vəhhabilər müsəlmandırlarsa, bəs niyə yalnız və yalnız müsəlmanları öldürürlər? Bu suala cavab tapmaq üçün İslam dünyasına nəzər salmaq lazımdı. Son bir neçə əsrdə, İslam dünyası üç böyük qondarma firqə cərəyanları ilə üzləşdi. İranda bəhayilik, Pakistanda qadiniyyə və ya əhmədiyyə, Ərəbistanda isə vəhhabilik firqəsinin yaradılmasıdır. Hər üç firqələr ayrı-ayrılıqda İslam dininə böyük və sarsıdıcı zərbə vurdular. İranda bəhayilik firqəsi, Əmir-kəbir kimi böyük şəxsiyyətlərin vasitəsi ilə, Pakistanda isə Seyyid Əbul - əla Mududi vasitəsi ilə əhmədiyyə firqəsinin qarşısı alındı. Bu firqələrin demək olar ki, adları fəqət tarixi-firqələr kitaplarında qaldı. Amma Ərəbistanda vəhhabiliyin qarşısını alan şəxlər olmadığı üçün, əsas problemlərdə elə bu zamanlarda başlandı.(Məhdi Musavizadə, sələfigəri və vəhhabiyyət, c;1, səh; 17) Bunun səbəbi isə İngilislərin uzun müddətli planları idi ki, nəyin bahasına olursa olsun, İslam aləmini bir-birinə vursunlar. Nəticədə isə göründüyü kimi buna nail oldular. Hətta bununla kifayətlənməyib, bu batil firqəni yaşatmaq üçün bir neçə təbliğat metodlarına əl atmaqdan belə çəkinmədilər. Bu məqalədə başlıca məqsəd, o metodlardan bir neçəsinə işarə etməkdir.




**Birinci metod:**

***Kəbə və Peyğəmərin (s) məscidinə yiyələnmək və bu müqəddəs məkanlardan təliğat vasitəsi kimi istifadə etmək.***

İslan dinin Ərəbistanda zühur etməsi, Kəbə evinin Məkkədə yerləşməsi, Məhəmməd (s) peyğəbərin qəbrinin Mədinə şəhərində olması vəhhabilərə öz batil inanclarını təbliğ etməyə bir daha böyük fürsət vermiş oldu. Onlar, bu fürsətdən idtifadə edərək özlərini "Xadimul – hərəmeyn" yəni iki hərəmin (Kəbə və peyğəmbərin məscidi) xadimi adlandırdılar. Deməknolar, əksər müsəlmanlarda bu ləqəbə aldanaraq onları haq yolda olduqlarnı düşündülər. Ərəbistan rəhbərləri isə bu fürsətdən istifadə edərək ayrıca "Həc nazirliyi" yaradaraq, hər bir dini kitab, jurnal və... təbliğat üçün lazım olan bütün ləvazimatların vəhhabilik firqəsinə əsasən yazılmasına nəzrət etməyə başladılar. Bütün din alimlərini vəhhabilik firqəsinə əsasən fətva və suallara cavab verməyə məcur etdilər və etməkdə də davam edirlər.

(Cəfəri, Fərhənge puya jurnalı, nöm; 7, 1386 hic-ş)

**İkinci metod:**

***Həcc mövsümündən istifadə edilməsi.***

Vəhhabilərin təbliğ metodlarından biri də, Həcc ziyarəti mövsümündən lazımınca bəhrələnməkdə olmalarıdır. Bildiyiniz kimi, hər il Həcc mövsümü zamanı dünyanın hər tərəfindən milyonlarla müsəlman hacı olmaq eşqi ilə bir yerə toplaşırlar. Vəhhabilər yaranmış vəziyyətdən öz batil əqidələrinin yayılması üçün sui-istifadə edir və bunu ən əlverişli fürsət sanırlar. Öz təbliğatçılarını müxtəlif dilli hacılar arasında bölüşdürür, elmi mühazirələr, kitab hədiyyə etmək və elm xadimlərini elmi mərkəzlərə dəvət etməklə öz məzhəblərinə tərəf çəkirlər. Hətta son zamanlar qeyri-ərəb hacılar arasında müxtəlif dillərdə yüksək tirajda nəşr edilmiş anti-şiə xarakterli kitabların pulsuz paylanması müşahidə edilməkdədir. Çox gizli şəkildə təxribat xarakterli yazılmış bu kitablar öz inanclarını isbat, şiə və digər İslam məzhəblərinin əqidələrini batil göstərməyə xidmət edir. (Əli – Əsğər Rizvani, Sələfigəri, səh; 197) Mən 2010-cu ildə həcc ziyarətində olarkən, ən çox paylanılan kitablar arasında fars dilində şiəliyin əleyhinə yazılan mənbəsiz kitabları gördüm. Bu kitabları Şiə olduqları üçün İran İslam Resbublikasıdan gələn hacılar üçün

paylayırdılar ki azda olsa onların zehinlərində şiyə əqidəsinə qarşı şübhələr doğursun. Bir sıra mənbələrə əsasən, bu Hacc mərasimində dünyanın 20 canlı dilində iyirmi milyondan artiq kitab paylanılır. Buda, o demekdir ki, bir Hacı başına təqribən yeddi nüsxə kitab düşməkdədir. Əslinə baxsaq vəhhabilər, Hacc mövsümündən istifadə edərək, Ərəbistan hökümətinin çirkin siyasətini həyata keçirərək hacıların zehnlərində saxta inancların formalaşdırmağa çalışırlar.

*Üçüncü metod:*

### Bidətlə mübarizə və İslam dinini nicat şüarı.

Vəhhabilərin iddialarından biridə bidətlə mübarizə edərək İslam dinini nicat verməkdir. Bunun əsas və başlıca səbəbi isə yalniz özlərini haqq və başqa məzhəbləri batil bilməkdir. Necə ki, vəhhabilər özlərinin "Əhli-sələf" yəni səhabələrin davamçıları, başqalarını isə "Əhli xələf" yəni bidət qoyanlar və xilaf əhli adlandırırlar. (Dr. Məhəmməd Əsədi, Asibşinasiye cərəyanhaye təfsiri, c; 1, səh; 199). Onların fikirlərinə əsasən, gərək müsəlmanlar mübarizə apararaq, bidəti təmizləsinlər. Amma bunu düşünə bilmədilərki, bunların bu addımları İslam düşmənlərinin, İsalm dinin məhv etmək üçün tökdükləri praqramlardır. Axı bidətlə mübarizə etmək yollarından biri məntiqi və əqli dəlilə və ya hansısa sünnətlə bidətin isbat edilməsi olmalıdır. Vəhhabilər isə bir tərəfdən məntiqi və əqli dəliləri qəbul etməyərək, digər tərəfdən isə hədisləri ixtisar etməklə İslamın elmi irsini məhv etməya çalışırlar. Əgər onların, həqiqətəndə fikirlərində bidətlə mübarizə varsa, gərək özlərinin batil əqidələri ilə mübarizə etsinlər. Çünki İslamda olamayan batil və açıq-aşkar bidətləri onlar daxil etməkdədirlər.

*Dördüncü metod:*

### Kitabların və elmi mənbələrin ixtisar edilməsi.

Vəhhabilər, İmamiyyə şiələrinin digər məzhəblərdən daha artıq elmi məsələlərə yer verdiyinə görə, onlarla mübarizə etməyi qarşılarına məqsəd qoymuşlar. Vəhhabilərin, müxalifləri ilə mübarizə yollarından biri də əhli-sünnətin hədis, təfsir və tarix kitablarının öz mənafeləri yönümündə dəyişdirilməsidir. Onlar öz əqidələri ilə bir araya sığmayan hədis və sözləri dəyişdirir, daha sonra çapxanalara o kitabların təhrif olunmuş formasını nəşr olunmasını sifariş edirlər. Elə bu səbəbdən bəzən görürük ki, bir müəllif qaynağını da qeyd etmək şərtilə hər hansı bir hədisə əsaslanır. Yeni çaplara müraciət etdikdə hədisdən heç bir əsər-əlamət gözə çarpmır. Lakin qədimi çaplara baxdıqda aydın olur ki, bu hədis sonrakı nəşrlərdə ixtisara salınaraq silinmışdır. Xüsusilə, vəhhabilərin nəşriyyatlarla sıx əlaqə yaratmaları, təhrif edilmiş kitabların ucuz qiymətlərlə satışı, yaxud daha çox insan kütləsinin əlinə çatsın deyə, pulsuz paylanması kimi işlərdə fəallıqları inkaredilməzdir. Məsələn, Peyğəmbərin (s) «Mən elmin şəhəriyəm, Əli isə onun qapısıdır.» məzmunda buyurduğu hədisi İbn Əsir Cameul-üsul kitabında, Süyuti Tarixul-xüləfada və İbn Həcər Əs-səvaiqul-mühriqə əsərində Səhihi-Tirmizidən vaxtı ilə nəql etməklərinə baxmayaraq, hal-hazırda Müslimin səhihində bu rəvayətlərdən əsər-əlamət qalmamışdır.

Hədis, tarix və təfsir kitablarının orijinal mətnlərini ixtisar etmək vəhhabilərin digər bir təbliğ metodlarından hesab olunur. Onlar kitabları, oxucu daha çox faydalansın deyə xülasələşdirmək bəhanəsi ilə, etiqadları ilə qeyri-müvafiq hissələrini ixtisara salırlar. Daha sonra onu çapxanalara verərək qısaldılmış formada çap etdirərək yayırlar. Bu batil firqə ardıcılları, beləcə hədis, təfsir və tarixi həqiqətləri dəyişdirərək danılmaz reallıqlar kimi xalqa təlqin edirlər. (Sirace munir jurnalı, birinci il, nöm: 4) Buna misal olaraq, Əli Əsğər Rizvani Məhəmməd Disnəvidən belə nəql etdiyini görürük: Hədislərin təhrif və ixtisarı, vəhhabilərin daimi işlərindən biridir. Misal ünvanında sizlərə bunu deyə bilərəm ki, Noman Alusi, atası Şeyx Məhəmməd Alusinin təfsir kitabını "Ruhul-məani" adına təhrif etdi. Vəhhabilərin zərərinə olan sozləri tamami ilə sildi. Əgər o, bu işi görməsəydi, onun təfsiti nümunəvi təfsir kitablarından hesab olacaqdı. (Əli - Əsğər Rizvani, Sələfigəri, səh; 194)

Tarixi kitablarda xəlifələr – Müaviyə, Yezid və bəzi səhabələr barəsində söylənilmiş mənfi xüsusiyyətlər ixtisara salınır, həmçinin Əhli-beytin (ə) fəzilətləri haqqında olan məlumatlar kitabın müxtəlif yerlərindən asanlıqla silinir; halbuki, xəlifələr və bəzi səhabələrə dair qondarılmış saxta hədislərə toxunulmur. (Sirace munir jurnalı, birinci il, nöm: 4)

Beşinci metod: Böyük dini şəxsiyyətlərin qəbir və ziyarətgahlarını qağıdaraq xarab etmək.

Vəhhabilərin təbliğ metodlarından biridə qəbir və ziyarətgahların dağıdaraq xarab etmələridir. Bu yolla demək istəyiylər ki, fəqət biz tövhidə inanırıq və əsl müsəlmanda bizik. Axı bir müsəlmanki öz ata babsının qəbrinə və yaxud öz inandığı dini şəxsiyyətlərin qəbrinə hörmət etmədiyi halda necə özünü müsəlman adlandıra bilər? Tarixi itirib məhv etmək müsəlmançılıqdırmı? Axı bunun harası müsəlmnçılığa oxşayır? Onların bu məntiqsiz və şərəfsiz hərəkətlərinidə alimləri tərəfindən verilən fətvalarında da açıq-aşkar görmək olar. Buna misal olaraq bir neçə fətvanı nəzərinizə çatdırmağı özümə lazım bilirəm. Ibni Qəyyim Cuzi belə yazır: qəbirlərin üstündə olan binalar və ziyarətgahlar bütlər və tağutlar şəklində ibadət olunduqları üçün onları viran etmək vacibdir. Onları viran etmək fürsəti olduğu halda bir gün bele qalmaları caiz deyildir. Çünki onlar Lat və Üzza bütlərinin yerindədirlər və ya ən böyük şirkdirlər. (Nəcmuddin Təbəsi, ruykərde əqlani bər bavərhaye vəhhabiyyət, c: 5, səh: 14). Sənani isə öz fətvasında belə yazır: qəbirlər, bütlər kimidir. Çünki bütpərəstlər bütlər üçün gördükləri işləri qəbirə ehtiram edənlərdə, ata-babalarının qəbirləri üçün yerinə yetirirlər. Hər halda cahiliyyət dövründə yerinə yetrilən işlərdəndir. Lakin büt yerinə ata-baba qəbri deməklə, bütə ibadət halından çıxmır. (Nəcmuddin Təbəsi, ruykərde əqlani bər bavərhaye vəhhabiyyət, c: 5, səh: 13). Belə çıxır Sənani ata-baba qərini hələ bütlərdən seçib ayırmağı bacarmayır! Axı indi cahiliyyət dövrü də deyil. Düşünürəmki hər bir ata-babsının qəbrini ziyarət edən şəxsdən şoruşulsaki, sən bütə ibadət edirsən yoxsa ata-babanın qəbrini ziyarət edirsən. Sizcə nə cavab verər?

**Fariz Rəcəbov**

# UŞAQLARA CİNSİ MƏSƏLLƏLƏRİ HANSI YAŞDA VƏ NECƏ ÖYRƏDƏK?



***Günümüzdə övladlarının cinsi xarakterli sualları ilə üz-üzə qalıb cavab verməkdə çətinlik çəkən valideynlərlə tez-tez qarşılaşırıq. Bu vəziyyətdə vali-deynlər həyəcan keçirir, övladlarının suallarına doğru-düzgün cavab vermir. Yaxud da suala cavab verməyərək onların fikrini başqa məsələlərə yönəldir. Hətta elə valideynlər olur ki, övladı bu tip suallar soruşduqlarında: "bu cür sözləri kimdən öyrənmisən?", "sən çox tərbiyəsiz uşaqsan" deyib, onları cəzalandırırlar.***

Baxmayaraq ki, valideyn qorxusu səbəbiylə uşaqlar müvəqqəti olaraq bu sualları bir daha soruşmurlar, lakin yeniyetməlik dövdünə qədəm qoyduqları andan etibarən onlar yenidən bu cür suallarına cavab axtarmaq qərarına gəlirlər. Amma bu dəfə münasib olmayan yollarla, dostlar, internet və bu haqqda yazılmış və yaşlarına uyğun olmayan kitablar vasitəsiylə onları narahat edən suallara cavab axtarırlar.

Buna görə də valideynlər övladlarının tərbiyəsi ilə yanaşı onların cinsi tərbiyəsinə də ciddi yer verməlidirlər. Çünki, bu suallara vaxtında və düzgün cavab verməməyin nəticəsində övladlarında müxtəlif növ fizioloji və psixoloji problemlər baş qaldırır. Amma təəssüflə qeyd etmək lazımdır ki, hələ də elə valideynlərlə üzləşirik ki, övladlarına cinsi tərbiyə vermək əvəzinə: "böyüsün özü hər şeyi başa düşər" deyə fikirləşirlər.

Əgər bu bilgilər uşaqlara gec, naqis və həqiqətə uyğun olmayan şəkildə verilərsə, istənilən nəticəni verməyəcək, hətta problemi daha da dərinləşdirəcəkdir. Əgər valideynlər övladlarının bu tip suallarına diqqətli və münasib cavablar verərlərsə, onların ruhi sıxıntılarının qarşısını almaqdan əlavə, gələcəkdə cinsi pozğunluqlarının da qarşısını almış olacaqlar.

## 2-3 yaş

Uşaqlar iki yaşdan etibarən öz bədənləri ilə maraqlanmağa başlayırlar. Hətta bu yaşdan etibarən başlanan "tualet"ə öyrətmə onlarda cinsiyyət orqanlarına olan marağı daha da artıra bilər. Bu maraq onlarda öz cinsiyyət üzvləri ilə oynamaları və həzz almaları ilə birlikdə olur. Lakin bu həzz cinsi ləzzətdən tamamilə fərqli bir şeydir.

Övladlarında bu kimi rəftarları görən valideynlər bəzən tez həyəcan keçirir, buna kobud şəkildə mane olaraq uşaqlarının daxilində günahkarlıq duyğusunu yaradırlar. Halbuki bu cür vəziyyətdə dolayısı yolla onların fikrini yayındırmaq mümkündür. Əsas odur ki, valideyn bunun uşaqlarda vücudunutanıma və kəşf etmə duyğusu olduğunu anlasınlar. Əgər uşaq davamlı olaraq öz cinsiyyət üzvünə əl vurursa, bu zaman psixoloji sıxıntıların olub-olmamasını yoxlamaq lazımdır. Məsələn uşaq "tualet"ə öyrədilən zaman sıxıntıya, təzyiqə məruz qalıb, yoxsa yox?! Yaxud qidalanma ilə bağlı hər hansı bir təzyiq onlarda stres yarada bilər. Əgər bunlardan hər hansı biri

uşaqda sıxıntılara səbəb olubsa, bu səhv metodları aradan qaldırmaqla bu kimi rəftarlar da aradan qalxacaqdır.

### 3-4 yaş

Üç -dörd yaş arası qız və oğlan uşaqları artıq aralarında olan fərqlilikləri başa düşürlər. Hətta bir-birinin cinsiyyət orqanını necəliyi ilə maraqlana bilərlər. Bu yaşda uşaqlar öz uşaqlıqlarını, necə dünyaya gəldiklərini bilmək istəyirlər. Dörd yaşdan sonra qız uşaqlarının ataya və oğlan uşaqlarının anaya daha yaxın olmaq istədiklərinin şahidi oluruq. Həmçinin qızlar analarını və oğlanlar atalarını bu yaşda çox təqlid edirlər.

Valideyn onların suallarına sadə və başa düşəcəkləri dildə cavab verməlidir. Əgər uşaq cinsiyyət üzvü haqqında hər hansı bir sual verirsə, valideyn bədənin digər orqanları və onların fəaliyyətləri haqqında danışaraq cinsiyyət üzvü haqda da məlumat verməlidir. Lakin valideyn diqqət etməlidir ki, uşaq bu bilgilərə hansı həddə sahib olmalıdır?!

Bu yaşda uşaqlar sevgi və mehribanlığa ehtiyac duyduqları üçün cinsi məsələləri onlara başa salan zaman onlara məhəbbət göstərilməlidir.



Həmçinin onlara bu yaşda, qız-oğlan uşaqlarının fərqliliklərindən, cinsiyyət orqanının onların şəxsi bədən üzvü olmasından və başqalarının ona baxması və toxunmasına mane olmaq lazım olduğundan danışmaq olar.

### 4-5 yaş

Artıq bu yaşda cinsiyyətlə bağlı olan hər bir sual onları maraqlandıra bilər. Oğlan və qızların cinsiyyət üzvlərindəki fərqliliklərə səbəb nədir? Niyə atalar hamilə qalmir? Mən necə olub ki, dünyaya gəlmişəm? Dünyaya gəlməzdən əvvəl harada idim və s.

Uşaqlara onların başa düşəcəyi dillə oğlan-qız fərqliliklərini başa salmaq lazımdır. Necə dünyaya gəlməsi haqda səhv məlumat vermək əvəzinə onun başa düşəcəyi dillə həqiqəti demək olar. Bu yaşda bir uşağa sən ana bətnində xüsusi bir yerdə idin. Bir müddət orda qaldıqdan sonra böyüdün və dünyaya gəldin. Həmçinin bu mərhələlərdən sonra onun dünyaya gəlməsində həkimlərin də rolunun olmasını söyləyə bilərsiniz.

Bu yaş dövründə uşaqların ən çox oynadıqları oyun həkimlikdir. Bunun əsas səbəbi isə bir-birindəki cinsi fərqlilikləri kəşf etmək duyğusudur.

Qız-oğlan uşaqları bu yaşda öz cinsiyyətinə uyğun olaraq oyunda rollar alır. Qız ana, oğlansa ata olmaq istəyir. Böyüklər onların bu kimi oyunlarına mane olmamalı, lakin vəziyyəti kənardan nəzarət altında saxlamalıdırlar.

### 6-9 yaş

Bu yaşda uşaqlar daha çox öz həmcinsləri ilə oynamağa üstünlük verirlər. Bu yaşda artıq uşaqlar cinsi məsələri öyrənməyə daha çox meyilli olduqlarından böyüklər diqqətli olmalıdırlar. Bu yaşdan etibarən övladlarınıza yeniyetməlik dövründən və bu dövrdə onları gözləyən dəyişikliklərdən xəbər verə bilərsiz. Lakin bunu elə etmək lazımdır ki, uşaqlar vəhşətə düşməsinər. Onlara yeniyetməlik dövründə baş verəcək fizioloji, psixoloji dəyişiklikləri dərkləri səviyyəsində anladın. Baxmayaraq ki, hələ bu proseslər onlarda baş verməmişdir. Məsələn, onlarda baş verəcək bədən qruluşunun dəyişməsi, səslərinin kobudlaşması, bədənlərinin böyüməsi, bədənlərinin bəzi yerlərində tüklərin əmələ gəlməsi, üzlərində səpkilərin yaranması və sair. Həmçinin qızlara "aybaşı" dövrünü başa salan zaman bu məsələyə daha həssas yanaşmalı, bu vəziyyətin onun gələcəkdə ana olması üçün bir giriş nöqtəsi olduğunu başa salmaq lazımdır.

### 10-14 yaş

Bu dövrdən etibarən artıq övladlarınız yeniyetməliyə addım atır. Əgər bu vaxta kimi də övladınızla söhbət etməmisinizsə, hələ də gec deyil, onunla danışın. Çünki, övladınız onda baş verən dəyişikliklər səbəbilə mənəvi və psixoloji cəhətdən özünü pis hiss edir. Bəzən isə bu dəyişikliklər barəsində utandığı üçün sual verə bilmir.

Uşaqlar cinsi suallar verən zaman valideyn nələrə diqqət etməlidir?

1. Özünüzü ələ alın, xəcaləti kənara qoyub, onun suallarına cavab verin.

2. İcazə verin sualını tam şəkildə soruşsun. Sualı diqqətlə dinləyin. Ona: "sən bu haqda nə düşünürsən?", "səncə necə olur?" suallarını verməklə verdiyi sualın nə qədərini özünün bildiyini öyrənə bilərsiniz.

3. Övladınıza sualı ilə bağlı açıqlamalar verən zaman şəkillərdən istifadə etmək də yerinə düşərdi.

4. Suallarına cavab verən zaman onların gözlərinə baxın və səs tonunuza diqqət edin.

5. Həddindən artıq məlumat verməkdən çəkinin.

**Məsumə Şahmərdanlı,**
*Psixoloq-konsultant*

# ELMİ MÜZAKİRƏ, DİSKUSSİYA VƏ CƏDƏL

***Dini insanlara təbliğ edən ruhani, bəzi hallarda elmi mübahisə və diskussiyalarla öz vəzifəsini icra etməli olur. O, müxalif fikirli şəxslərlə elmi bəhslər edir və dinin həqiqətlərini açıqlayır. Bu zaman olduqca mühüm üslublar və rəftarlara xüsusi diqqət ayırmalıdır. Burada həmin üslub və davranışların bəzilərini qeyd edirik.***



A) Müzakirə üslubları:

1- Əqli-mənriqi dəlillərə əsaslanmaq. Elmi müzakirədə qarşımızdakı şəxs, məntiq əhlidirsə, onunla ilahi hikmətlə, əqli dəlil-sübutlarla diskussiya aparmalıyıq. İlk növbədə, özümüz ağıl və məntiqi arqumentlərə əsaslanaq. Qurani-kərimdə buyurulur:

“Mən və mənə tabe olanlar açıq-aşkar bir dəlillə (insanları) Allaha çağırırıq.” (Yusif\108)

Həmçinin qarşı tərəfdən ağıl və məntiqi dəlillərə əsaslanmasını istəyək.

“(Ya Rəsulum!) Onlara söylə: Əgər (bu sözü) doğru deyirsinizsə, dəlilinizi gətirin!” (Bəqərə\111)

Necə ki, Quranda Allah-təala bir şeyi qadağan etdiyi zaman onun dəlil-sübutunu da söyləyir. Şərabın və qumarın hansı fəsadlar gətirdiyinə diqqət çəkəkərk, insanları ondan uzaqlaşmağa sövq edir.

“Şübhəsiz ki, Şeytan içki və qumarla aranıza ədavət, kin salmaq və sizi Allahı zikr etməkdən, namaz qılmaqdan ayırmaq (yayındırmaq) istər.” (Maidə\91)

Unutmayaq ki, ruhani sadə və əsassız sözlərlə deyil, o qədər dərin və möhkəm məntiqi dəlillərdən istifadə etməlidir ki, qarşı tərəf tam şəkildə qane ola bilsin. Çünki qarşımızdakı insanların hamısı iman gətirmiş şəxslər deyildir. Dəlil-sübut tələb edən şəxslər də vardır. Hərzət İbrahim (ə) Nəmrudla elmi mübahisə edərkən elə məntiqi dəlil gətirir ki, qarşı tərəf mat-məəttəl qalır.

“İbrahim ona: “Allah Günəşi şərqdən doğdurur, bacarırsansa, sən onu qərbdən doğdur! -dedikdə, o kafir donub qalmışdı.” (Bəqərə\258)

Deməli, həm müqəddəs kitabımızın və həm də Peyğəmbərlərin (ə), Məsumların (ə) üslubu müzakirələr zamanı ağıl və məntiqə əsaslanan dəlil-sübutlar üzərində olmuşdur. Biz bu barədə “ağıl və məntiqi arqumentlərə əsaslanmağın zərurili” haqda olan bəhsimizdə geniş məlumat vermişik.

2- Cədəl üslubu. Cədəl üslubu, qarşı tərəfi onun etiqad bəslədiyi və qəbul etdiyi məsələlərə əsaslanaraq susdurmaqdır. Dinimizdə cədəl üslubu bəyənilmir. Amma “gözəl cədəl” adlı bir məfhumda vardır ki, dinimiz lazım olduğu zaman ondan bəhrələnməyi tövsiyə etmişdir. Gözəl cədəl üslubunda məqsəd, qarşı tərəfi susudurmaq deyildir. Düzgün məntiqlə onun qəbul etdiyi təfəkkürə əsasən qane etməkdir. Qurani-kərimdə buyurulur:

“(Ya Rəsulum!) Olarla ən gözəl surətdə mücadilə (cədəl üslubu ilə müzakirə) et.” (Nəhl\125)

**B) Müzakirə davranışı**

1- Məğlub etmək hissinin pislənməsi

Müzakirə zamanı niyyətimiz qarşı tərəfi məğlub etmək olmamalıdır. Məqsədimiz sırf haqqı anlamaq və başa salmaq olmalıdır. Əgər müzakirədən əvvəl, müqabilinizdəki şəxsin haqq sözlərini, məntiqi dəlillərini qəbul etməməyi qarşınıza məqsəd qoymusunuzsa, bu müzakirəni başlamamışdan öncə bitirin. Ləğv edin. Çünki artıq niyyət ilahi deyil, şeytani sayılır. Bir halda ki, Qurani-kərimdə buyurulur:

“Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin!” (Əhzab\70)

Dinimiz təəssübün şeytani xislət olmasına daim təkid etmişdir. Bu dini təəssüb belə olsa, ifrat və radikallıq yaratdığı üçün, münaqişələr və mübahisələr doğurduğuna görə artıq şeytanın vəsvəsələrinə xidmət etmiş sayılacaqdır. Belə ki, şeytan və ona xidmət edənlər daim “din təəssübü və qeyrəti” adı altında inanclı insanları münaqişələrə və ixtilaflara çəkməyə çalışmışdır və indi də belədir.

İmam Əli (ə) (dini cəhətdən təəssübkeş insanlara) buyurur: “Əgər təəssübkeşliyin çarəsi yoxdursa, onda təəssübkeşliyiniz şərafətli, böyük, igid (ərəb) ailələrinin

və onların qəbilə böyüklərinin, sərvərlərinin bəyənilmiş əxlaqları, dərin ağılları, yüksək məqamları və gözəl rəftarları ilə bir-birindən üstün olmağa çalışdığları yüksək insani xüsusiyyətlərə, bəyənilmiş əxlaqlara və yaxşı işlərə görə olmalıdır. Buna görə də qonşunun haqq hörmətini saxlamaq, əhd-peymanlara vəfalı olmaq, yaxşılara tabe olmaq, təkəbbürün əleyhinə çıxmaq, yaxşılıq etmək, zorakılıq və təcavüzdən çəkinmək, adam öldürməyi böyük (günah) saymaq, camaatla insaflı olmaq, qəzəbini udmaq və cəmiyyətdə pozğunluq yaratmaqdan uzaq durmaq kimi bəyənilmiş xislətlər üçün təəssübkeşlik göstərin. Əgər təəssübkeşliyə məcbursunuzsa, onda haqqa kömək və məzluma yardımda öz təəssübünüzü göstərin." (Nəhcül-bəlağə, xütbə192; Qürərul-hikəm, hədis 3738)

***2- Müzakirənin səlahiyyətli şəxslər tərəfindən aparılması***

Müzakirəni tam ixtisaslaşmış və geniş dünya görüşə malik alimlər aparmalıdır. Dini müzakirələri "özünü hazır sayan hər kəs" etməməlidir. Geniş dünya görüşə malik, yüksək savadlı və kifayət qədər əxlaqi üstünlüyə malik olan şəxslər icra etməlidir.

***3- Müzakirənin əxlaqi normalara tam uyğun olmasının zəruriliyi***

Müzakirə əxlaqi normalara tam şəkildə cavab verməlidir. Əsəblərini cilovlamağı bacarmayan və emosiyalarına məğlub olan şəxslər, hər nə qədər elmi səlahiyyəti yüksək həddə olsa da, müzakirələrdən uzaq durmalıdır. Çünki belə müzakirələrin hörmətsizlik, təhdid, təzyiq və sair kimi xoşagəlməz rəftarlarla dolu olması qaçılmazdır.

Dinimizin buyruğuna əsasən, qarşı tərəfdə kimin və hansı əqidəyə qulluq etməsindən asılı olmayaraq, elmi-dini müzakirələr zamanı, yüksək dözüm, əxlaqi gözəlliklər nümayiş etdirməliyik. Münazirə zamanı məhəbbət, hörmət, insaf, ədalət və sair ali əxlaqi keyfiyyətlərə riayət edilməlidir. Həmçinin, elmi-dini müzakirə zamanı müxalif tərəfin azad şəkildə öz sözünün bəyan etməsinə tam şərait yaradılmalıdır. Belə ki, Qurani-kərimdə buyurulur:

"(Ya Rəsulum!) İnsanları hikmətlə (Quranla, tutarlı dəlillərlə), gözəl öyüd-nəsihət (moizə) ilə Rəbbinin yoluna (islama) dəvət et." (Nəhl\125)

Ümumiyyətlə Peyğəmbərimizin (s) və Əhli-beytin (ə) də elmi-dini müzakirələrdə rəftarı belə olmuşdur. Burada maraqlı bir rəvayəti qeyd etmək istərdik:

Bir gün axşamçağı Müfəzzəl, Peyğəmbərin məscidində (s) oturmuşdu. Bu zaman Zənadiqə firqəsinə mənsub olan ibn Əbülövca məscidə daxil oldu. O, məsciddəki şəxslərə Allahın var olmaması və Peyğəmbərin (s) dininin uydurma olması haqda söhbət etdi.

Bunu eşidən Müfəzzəl ayağa qalxaraq qışqıra-qışqıra dedi: Ey Allahın düşməni! Kafir olmusan? Səni ən gözəl şəkildə yaradan Allahı inkarmı edirsən?

İbn Əbülövca isə ona belə cavab verdi: Ay qardaş, əgər sən kəlam alimlərindənsənsə, səninlə onlar kimi danışım, bizə qalib gəlsən, sənə tabe olarıq. Amma, onlardan deyilsənsə, səninlə müzakirə etmək faydasızdır. Cəfər ibn Məhəmməd Sadiqin (ə) səhabələrindənsənsə, heç onun özü bizimlə bu tərzdə söhbət etmir. O, bizim belə sözlərimizi səndən də çox eşidib. Lakin bizi acılamayıb. Bizimlə danışarkən ədəb-ərkanlı olub. O, səbirli, təmkinli və ağıllı insandır. Heç bir zaman qəzəb ona güc gələ bilmir. Bizim sözlərimizi dinləyir, ürəyimizdə hər nə varsa deyirik. Elə düşünürük ki, onu məğlub etmişik. O isə qısa və dərin mənalı sözlərlə bizə qane edir. Bir halda ki, daha ona cavab vermək qüdrətinə malik olmuruq. Sən onun səhabələrindənsənsə, ona layiq şəkildə bizimlə davran.

Müfəzzəl bu əhvalatı İmam Sadiqə (ə) danışır. İmam Sadiq (ə) ona buyurur: "Sənin üçün Allahın, dünyanın, heyvanların, yırtıcıların, həşəratların, quşların, ümumiyyətlə, hər hansı bir canlının, meyvəli-meyvəsiz ağacların, yeyilməli-yeyilməyən bitkilərin hikmətini açıqlayacağam. Qoy ibrət götürənlər ondan ibrət götürsün və möminlər onunla öz mərifətlərini artırsın, kafir və inadkarlar isə ona heyran qalsınlar."

Beləliklə də, İmam Sadiq (ə) dörd gün ərzində insanın yaranışı, yaranışın əvvəli, zahiri və batini qüvvələr, insanın fitri sifətləri, insanın bədən üzvləri, müxtəlif növ heyvanların yaranışı və eləcə də, yer-göyün yaranması, bəla və təbii fəlakətlərin fəlsəfəsi və bir çox başqa məsələlər barədə söhbət etdi və Müfəzzəl də onları qeydə aldı.

Sonda bir məsələni də, qeyd etməyi lazım bilirik. İslam dini ilk növbədə, mübahisə və qarşıdurma ilə dolu söhbətlərdən uzaq durmağa çağırır. Çünki mübahisə dolu bəhsləri ortaya atdığımız zaman, qarşı tərəfi məğlub edərək, etiqadımızı ona qalib olmaqla qəbul etdirmək istəyirik. Bu zaman, mübahisəli şəkildə elmi bəhs edən iki şəxsi izləyənlər varsa, qürur, haqdan çəkinmək, qalib olmaq, təkəbbür, rişxənd, guya "dinin abrını qorumaq" və sair kimi pis niyyət və xislətlər daha çox ortaya çıxır. Əgər belə müzakirələr zəruridirsə, bir neçə alimin şəxsi dialoqunda baş tutması məsləhətdir. Xalq və izdiham qarşısında olması düzgün nəzərə gəlmir. Bu ixtilafların qızışdırılması, münaqişələrin yaranmasına təkan verir. Haqq sözü kiminləsə mübahisə etmədən, başqalarına bəyan etmək də mümkündür. Müasir zamanda başqa yollarla, kütləvi informasiya vasitələri, televiziya, radio, internet, kitab, məqalə və onlarla müxtəlif vasitələrlə məntiqlə və ədəblə sözümüzü bəyan edə bilərik.

**Dr. Əfzələddin Rəhimli**

# İSLAM DİNİNİN ÖZÜNƏİNAM HAQQINDA GÖSTƏRİŞLƏRİ



***Dünyada olan bütün uğursuzluqlarımızın, hər hansısa bir nailiyyəti əldə edə bilməməyimizin, arzu etdiyimiz, lakin başqalarının çatdığı məqamlara çata bilməməyimizin təməlində əksər hallarda özünə güvənsizlik və inamsızlıq dayanır. Elə bu səbəbdən də bu mövzuda olan gərəkli məlumatları müqəddəs dinimiz olan İslamdan əldə etməliyik.***

***Özümüzdə inam yaratmaq üçün iki məsələyə diqqət yetirməliyik. Bunlardan birincisi Qurani-Kərimdə insana verilən yüksək qiymətdir. İkincisi isə özümüzün şəxsi istedadımızı və potensialımızı dəyərləndirmək bacarığıdır.***

### Allahın elçisi - insan

İnsanlıq məqamına gəldikdə, ilk növbədə unutmamalıyıq ki, biz bir insan olaraq Allahın yer üzərindəki nümayəndəsiyik. Bu da o deməkdir ki, bizim yaradılışımızda İlahi qüdrətindən, gücündən, elmindən və hikmətindən qoyulmuşdur. Biz ilahi nümayəndəsiyiksə, deməli, Uca Allah öz tükənməz qüdrətindən insana da ərməğan etmişdir. Bu belədirsə, bizim oxşar xüsusiyyətlərimiz olmalıdır. Bizdə də elm, qüdrət olmalıdır. Allah-Taala bunları bizim zatımıza hədiyyə etmişdir. Deməli, biz insan olaraq özümüzə güvənməliyik.

### Mələklərin səcdəgahı - insan

Allah heç bir vaxt özünü tərifləmədi. O, ancaq insanı yaradanda özünə əhsən dedi. Allah-Taalanın mələkləri böyük əzəmətə, həddən artıq gücə, elmə mənsubdurlar. İnsan elə məxluqdur ki, hətta o böyük məqama sahib olan mələklər də ona səcdə etdi. Bu, onu göstərir ki, insan ən ali varlıqdır. Deməli, insan ali varlıq olduğu üçün özünə güvənməlidir.

Digər tərəfdən, özünə inamı olmayan insan tərəddüd keçirən, öz imkanlarına şübhə ilə yanaşandır. Tərəddüdlə şübhə isə şeytanın vəsvəsəsi sayılır.

### Bitib tükənməyən istedad – insan

Digər məsələdə isə insan öz potensialına arxalanmalıdır. Hər bir şəxs özünəməxsus istedada, potensiala malikdir. Biri güclü güləşçi olur, digəri isə bacarıqlı bağban, yəni dediyimiz kimi, hər bir şəxs müəyyən sahədə öz bacarığını göstərir. Allah-Taala ədalətlidir. Hərəyə bir cür istedad verib. Yetər ki, bu istedadı uşaq və ya yeniyetmə vaxtlarından müəyyən edib inkişaf etdirərsən.

### Allaha təvəkkül edən varlıq - insan

Özünəinam özünü bəyənmək, özündən razı qalmaq kimi mənfi xüsusiyyətlərdən və eyni zamanda təvazökarlıq kimi xüsusiyyətlərdən fərqlidir. Bir insan özünə güvənirsə, bu o demək deyil ki, o, özündənrazıdır, özünü bəyənir. Təkəbbür olduqca pis xüsusiyyətdir. Biz Allaha imanımız olduğu üçün özümüzə güvənirik, çünki Ona təvəkkül edirik. Allah bizim üçün belə potensiallar qoyubsa, deməli, biz bacararıq. Biz Allaha güvəndiyimizə görə özümüzə güvənirik. Biz özümüzdən razı deyilik, özümüzü bəyənmirik, sadəcə Allahın bizə verdiyi potensial imkanlara inanırıq.

Eyni zamanda özünəinam yersiz təvazökarlığı da istisna edir. İnsan heç bir iş görməyərək bunu təvazökarlığın üstünə atmamalıdır. İnsan deməməlidir ki, mən təvazökarlıq edərək heç bir məsuliyyəti üzərimə götürmürəm. Üzərimizə müəyyən məsuliyyət götürməsək, bizdə özünəinam yaranmaz. Biz gərək özümüzə güvənək. Belə etməsək, heç kim bizə güvənməz. Bu xüsusiyyəti aşılamağa ilk növbədə ailədən, uşaqlardan başlamalıyıq. Məsələn: əgər uşaq qaşığı əlinə alıb yeməyi özü yeyirsə, onu anası yedirtməməlidir. Uşaqda özünəinamı yaratmaq üçün ona müəyyən işləri bacardığını göstərməliyik. Uşağa məsuliyyət vermək lazımdır. Müəllimlər də sinifdə uşaqlara məsuliyyət verməlidir ki, onlarda özlərinə etimad hissi, özünəinam yaransın.

### Keçmişdən gələcəyə yol - insan

Hər bir şəxs, ailə, cəmiyyət özünə güvənməlidir. Bir millət olaraq və bir müsəlman olaraq biz özümüzə güvənməliyik. Özünəinam olmadığı yerdə heç vaxt inkişaf və irəliləyiş ola bilməz. Buna nümunə olaraq bizim Peyğəmbərimizin (s), imamlarımızın (ə) həyatından da görürük ki, onlar öz övladlarına məsuliyyətli olmağı tapşırırdılar. Hələ cavan yaşlarında oğlan uşaqlarını sərkərdə edirdilər. Müəyyən qoşunların başçılığını onlara həvalə edirdilər. Evdə isə qızlarına təsərrüfata dair işlər tapşırırdılar ki, gələcəyin anaları püxtələşsinlər, özlərinə inana bilsinlər.

### Ali məqsəd, yüksək dəyər - insan

Alimlərin, seçilmişlərin, qəhrəmanların, bir sözlə, sözünü demiş şəxsiyyətlərin ömür yolunu araşdırsaq, onların həyatlarının ən gözəl anlarının özlərinə inamlı olduqları anlar olduğunu görərik. Başa düşərik ki, onlar özlərinə inandıqlarına görə belə nailiyyətlərə müvəffəq olublar, uğur əldə ediblər. Əli (ə) buyurur: "Bir insanın dəyəri, qiyməti onun məqsədinin üstünlüyündədir. " İzah: Mənim məqsədim nə qədər üstün olarsa, dəyərim də bir o qədər üstün olar. Məqsədim, amalım kiçik olarsa, deməli, dəyərim də aşağı olar. Məqsədin kiçik olması insanın özünə güvənsizliyindən irəli

gəlir. Napoleon gözəl söz demişdir: “Mənim əlimdə olsaydı, bacarmıram sözünü lüğətlərdən yığışdırardım”. Tarixə sirr deyil ki, məhz özünəinam Napoleonu Napoleon etmişdir.

### Allaha yaxın olan peyğəmbər – insan

Bir yerdə ki şəkk, şübhə var, o yerdə uğur olmayacaq. Hər bir məsələyə inamla, imanla yanaşmaq lazımdır. Peyğəmbərimiz də öz yoluna inanmasaydı, heç vaxt özünə güvənməzdi. İnandı, təbliğ elədi, bu gün dünyada bir milyard yarım müsəlman görürüksə, bu, həmin inamın bəhrəsidir.

### Həya, abır simvolu - insan

Bəzən insanda özünəinamsızlığı həya, abır da yaradır. Bu onun utanmağından, nədənsə xəcalət çəkməyindən irəli gəlir. İslamda həyalı olmaq gözəl xüsusiyyət sayılır. Amma yersiz şəkildə xəcalət çəkmək insanda inamsızlıq yaradır. İslam bunu qətiyyətlə pisləyir.

### Allahın sevdiyi, inandığı şüurlu varlıq - insan

Vacib məsələlərdən biri də Allah-Taalanın insana güvənməsidir. Allah-Taala bizə güvənməsəydi, bizi hidayət etmək üçün, haqqa yönəltmək üçün peyğəmbərləri, səmavi kitabları göndərməzdi. Bunları bizim inkişafımız üçün, irəliləməyimiz üçün, qabağa getməyimiz üçün göndərib. Deməli, Allah-Taala bizi sevir və bizə inanır. İndi məsələ qalır bizim özümüzün özümüzə inanmağımıza. Özümüz özümüzə mütləq inanmalıyıq, güvənməliyik. Həyatdan dərslər almalıyıq.

### İnkişafın mənbəyi - insan

Görürük ki, sağlam insanın elədiyi bir işi xəstə, əlil insan eləyə bilmir. Əgər xəstə insan bir işi görürsə, mən sağlam olaraq o işi daha da yaxşı görə bilərəm. Görə bilməmişəmsə, deməli, özümə inamım olmayıb. Özümə inansam, bütün işlər alınacaq. Hərdən belə də olur ki, bir işi görmək üçün özümüzə inanırıq, lakin bu iş alınmır. Biz gərək məğlubiyyəti təcrübə kimi düşünək. Əgər mən bir işi bacarmadımsa, ilk mərhələdə alınmadısa, gərək “məndə heç nə alınmır” deməyim. əksinə, alınmayıbsa, bundan bir təcrübə almalıyam, bunu məğlubiyyət sayıb həvəsdən düşməməliyəm.

### Mükəmməlliyin simvolu - insan

Allah-Taala insana çox güvənir, ona düz yolda olmağı tapşırır. Bir hədisi qüdsidə Allah-Taala buyurur: “Ey mənim bəndəm, əgər mənim buyurduqlarıma əməl etsən, səni özüm kimi eləyərəm. Mən nəyə ol deyirəmsə, olur, sən də nəyə ol desən, olacaq”. Burada məsələ budur ki, biz düz yolda olsaq, Allah-Taala bizə o qədər kömək olacaq ki, hər şey öz-özünə alınacaq, öz-özünə yoluna düşəcək, özümüzə inamı bir az da artıracaq. Göründüyü kimi, heç bir işə alınmayacaq demək olmaz. Çətindir demək olar, buna baxmayaraq “öhdəsindən gələrik” demək lazımdır. Allah bizə bunu öyrədir ki, insanın həyatda bacarmadığı bir iş yoxdur. Sadəcə olaraq insan çalışmalıdır. Allah-Taala Qurani-Kərimdə buyurur: “İnsan nə əldə edirsə, çalışmağı ilə qazanır.” Deməli, heç bir şey bizim üçün qeyri-mümkün deyil, sadəcə zəhmət çəkməliyik, özümüzə olan inamı artırmalıyıq.

### Yaxşıların yaxşısı - insan

Əlbəttə ki, mən özümə güvənməliyəm, amma həqiqəti də düzgün qiymətləndirməyi bacarmalıyam. Görsək ki, bir yerdə bizdən də yaxşısı var, onu insanlara tanıtdırmağa çalışmalıyıq. Özümüzdən yaxşısını insanlara təqdim etməyi bacarmalıyıq. Allah-Taala Qurani-Kərimdə Həzrəti Musaya buyurur: “Get, Fironu haqqa yönəlt!” Həzrəti Musa bunu bacarardı. Amma qardaşı Harunun nitqi daha mükəmməl olduğundan Həzrəti Musa Allah-Taalaya deyir ki, qardaşım Harunun nitqi mənimkindən daha güclüdür, onu mənə köməkçi elə. Allah-Taala da onun bu təklifini qəbul edir, Həzrəti Harunu ona köməkçi edir. Bu, o demək deyil ki, həzrəti Musa özünə güvənmir, sadəcə bilir ki, Harunun nitqi onunkundan daha üstündür, ona görə də onu Allaha təqdim edir.

### Allahdan güc alan qüdrət - insan

Gündəlik şahidi olduğumuz stress və depressiya hallarının kökündə də özünə inamsızlıq və tərəddüd durur. Əgər bir insan tez-tez stressə düşüb həyəcanlanırsa və ya tam əksi, ruh düşkünlüyü yaşayıb depressiyaya düşürsə, deməli, həmin insan özünə olan etimadını itirib. Elə bu səbəbdən Qurani-Kərim bu məsələnin üzərində təkidlə dayanır. “Tənbəl və qəmgin olmayın, siz nə qədər ki Allaha inanırsınız, çox üstünsünüz ” (Ali İmran 139). Özünəinamsızlığın əsas səbəbi qorxu hissidir ki, İslam dinində Allahdan başqa heç bir şeydən qorxmamaq məsələsi hamıya bəllidir. Ümumiyyətlə insan özünə güvənmədiyi təqdirdə, İlahi nemətlərindən də, dünyanın halal ləzzətlərindən də məhrum qalır. Misal üçün: bir gənc özünə güvənməyib ailə qurmaqdan çəkinirsə, deməli, o, ailə ləzzətindən məhrum qalacaq. Və ya universitetə girməzsə, dərs almağın, elm öyrənməyin ləzzətini dadmayacaq.

### Möcüzə obyekti - insan

Özünəinam məsələsi o qədər mühümdür ki, İslam peyğəmbərinə söylənilləndə ki Həzrəti İsanın həvariləri suyun üzərində gəzirdilər, Peyğəmbər buyurdu: “Əgər sizin yəqininiz (iman və inamınız) çox olarsa, havanın üzərində də yol gedə bilərsiniz”.

### Özünəinamın çərçivəsi – insan

Özünə güvənməyən insanlar adətən bir işi görməkdən ona görə qorxurlar ki, bir qrup insanlar onlardan narazı qalacaqlar. Halbuki dinimizə görə insan doğru bildiyi işi gecikdirmədən inamla yerinə yetirməlidir.

Lakin bu demək deyil ki, özünə inamın sərhədi olmamalıdır. Xüsusilə qeyd etməliyik ki, özünəinam kimi həssas mövzularda sərhədsizlik insanı gözlənilməz uçurumlara yuvarlandıra bilər. Məsələn: Cılız, çəlimsiz insana bir anlıq elə gələ bilər ki, istənilən şəxsdən fiziki cəhətdən güclüdür. Və ya kimlərsə eyni cür düşünə və onu bu cür yanlış bir düşüncəyə inandıra bilər. Zənnimcə, həmin insanın güclü rəqiblə münaqişəyə girərkən başına gələcək oyunları təsəvvür eləmək elə də çətin deyil. Deməli, hər bir maddi varlıqda olduğu kimi özünəinamın da dəqiq konturları, sərhədləri olmalıdır. Bəs onda bu sərhədləri necə müəyyən etmək olar? Çox sadə. İnsan özünü kənardan görə bilmədiyi üçün onu yaxın adamları qədər obyektiv qiymətləndirə bilən tapılmaz. Məhz yaxın qohumların, dostların sənin haqqında dedikləri səmimi fikirləri təhlil edərək öz gücünü düzgün qiymətləndirə bilərsən.

***Əlbəttə ki, hər bir halda son sözü insan özü deməlidir. Son sözünüzün hər zaman “Şükür” olması arzusu ilə***

**Dr. Tofiq Əsədov**

# İSLAMDA SÜLH ANLAYIŞI



***"Cihad"ın tərifi haqqında demək lazımdır ki, onda məqsəd Allah sözünün ucalması və ilahi hakimiyyətin yer üzündə bərqərar olması yönündə əməkdaşlıqdır.***

***Demək, İslamın ortaya qoyduğu sülh bu gün dövlətlər arasında mövcud olan sülh anlayışından fərqlənir. İslam sülhü daha geniş və daha dərin məna kəsb edir. Burada məqsəd bütün yer kürəsində Allah adı altında dinc yanaşı yaşamaq, bütün bəşəriyyət üçün ictimai və ümumi təhlükəsizliyi təmin etməkdir.***

Yalnız özünü savaşdan saxlamaq, hətta bu zülm, zorakılıq, cəhalət, fəsad dünya xalqlarının üzərinə kölgə saldığı zaman olsa belə İslama görə sülh hesab olunmur. İslamın nəzərdə tutduğu sülh o sülhdür ki, onda bütün bəşər övladları fikri baxımdan azad və aram atmosferdə, Allaha pərəstişi təbliğ etmək, yaymaq, uca Allah sözünü reallaşdırmaq və ilahi hakimiyyəti möhkəmləşdirmək üçün heç bir narahatlıq duymadan yanaşı dinc yaşamaqdır. Allahın onlar üçün nəzərdə tutduğu hər tərəfli ictimai ədalətdən azad və müstəqil yararlanmaqdır. Demək, aydın olur ki, İslamda cihad və sülhün məqsədləri müştərəkdir.

İslam sülh, əminamanlıq və saflıq dinidir. İslam sözü özü "silm" kökündəndir. Sülh və əminamanlıq ifadələri Quranda dəfələrlə işlənmiş və dərin mənalar ifadə etmiş və böyük önəm kəsb etmişdi. "Silm" kökü lüğətcə zahiri və batini xəstəliklərdən, afətlərdən uzaq olmaq mənasını ifadə edir. Quranda deyilir: Yəni, o zaman o öz Rəbbinin hüzuruna tərtəmiz bir qəlblə gəlmişdi.

Quranda "silm" ifadəsi sülh və əminamanlıqıa sinonimdir. Belə ki, bir ayədə oxuyuruq:

"Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə gəlin! Şeytanın yolu ilə getməyin, çünki o sizin açıq düşməninizdir!" ("Bəqərə", 208). Burada sülh ədalətli saziş və dinc yanaşı yaşamaqdır. Həmçinin digər bir ayədə oxuyuruq:

Yəni, əgər sülhə meyl göstərsələr, sən də sülhə meyl göstər. Başqa bir ayədə oxuyuruq: "Əgər onlar sizdən aralanıb bir tərəfə çəkilsələr və sizinlə vuruşmayıb sülh təklif etsələr, o zaman Allah sizin üçün onların əleyhinə çıxmağa heç bir yol qoymaz. " ("Nisa", 90) Hər halda "İslam" Allahın əmrinə təslim olmaq, yalnız Allah qarşısında baş əymək, Onun iradəsinə tabe olmaqdır və bu bir müsəlmanın düşüncə və davranışının əsasıdır.

"Sülh" sözü isə lüğətdə barışıq, saziş və xalq arasında nifrəti aradan qaldırmaq mənalarını ifadə edir. Səlah və salih sözləri ədalət, insaf, ləyaqət və hər növ fəsaddan uzaq durmaq mənaları ilə üst-üstə düşür. "İslam" sözü də həmin kökdən törəmiş və ülfət, sülh mənalarını ifadə edir.

Allah-taala Quranda buyurur: " Allahdan qorxun, aranızdakı münasibətləri düzəldin " ("Ənfal", 1).

Başqa bir ayədə oxuyuruq: Yəni, yer üzərində iş yoluna qoyulduqdan sonra orada fəsad törətməyin.

"O kəslər ki, yer üzündə fitnə-fəsad törədər və (pis işlərdən, günah əməllərdən əl çəkib özlərini) islah etməzlər!" ("Şuəra", 152).

Məsumlardan bizə gəlib çıxan hədislərdə də silm və sülh sözləri müxtəlif mənalarda işlənmişdir.

Buna görə də İslamda sülh birincilik təşkil edir və cihadın da mahiyyəti müdafiədir. Hər ikisinin məqsədi isə dünyada tövhid əqidəsini yaymaq və ilahi qanunları kürsüyə oturtmaqdır.


**Qaynaqlar:**

*1. Hicazi, Fəxr əd-Din, "Cəg əz didgahi-Nəhc əl-bəlağə";*

*2. Dust Məhəmmədi, Əhməd, "Diplomasi və rəftari-siyasi dər islam";*

*3. Şəhid Mütəhhəri, Mürtəza, "Cihad";*

*4. Nuri, Hüseyn, "Cihad".*


Tərcümə edən: **Maqsud Sayıl**

# İslamın əzəmətli qadını Xanım Zeynəb (s.ə)

***İmam Hüseyn (ə) Xanıma buyurmuşdu: "Əziz bacım, qıldığın gecə namazlarında mənə dua etməyi unutma"***

***İslamın əzəmətli qadınlarından və Kərbəla qəhrəmanı kimi məşhur olan Xanım Zeynəb (ə) hicrətin 5-ci ilində Cəmadiul-əvvəl ayının 5-də dünyaya göz açıb. Xanım Zeynəb (s.ə) yüksək əxlaqa, səbrə, əzəmətə, elmə və natiqliyə sahib bir xanım idi. Xanım Zeynəb, təkcə qadınlar arasında deyil, kişilər arasında da nümunəsi az-az tapılan qadın idi.***



## İlahi göstərişlə qoyulan ad - Zeynəb

Xanım Fatimə (s.ə) Zeynəbi (s.ə) dünyaya gətirəndə Peyğəmbər (s) Mədinədə yox idi. Ona görə də Xanım Fatimə Əlidən (ə) uşağa ad qoymasını istədi. Əli (ə) isə bildirdi ki, Allahın Peyğəmbərinin (s) səfərdən dönməsini gözləsinlər və O, hansı adı məsləhət bilsə, o adı da qoyacaqlar. 3 gündən sonra Peyğəmbər (s) səfərdən döndü. Əli (ə) mətləbi ona anlatdı. Və ondan uşağa ad qoymasını istədi. Peyğəmbər (s) bildirdi ki, Fatimənin övladları mənim övladlarım olsa da, onlar barəsində qərar vermək yalnız Allaha məxsusdur. Ona görə də mən ilahi vəhyi gözləməliyəm. Bundan sonra Cəbrail (ə) nazil olaraq bildirdi: "Ya Peyğəmbər, Allah buyurur ki, bu qızın adını Zeynəb qoyasan. Çünki bu adı Lövhi-Məhfuzda bu cür yazmışam".Bunu eşidən Peyğəmbər (s) təzə doğulan körpəni onun yanına gətirilməsini istədi. Uşağı qucağına alan Peyğəmbər (s) onu öpərək buyurdu: "Ümmətin hal-hazırda mövcud olanlarına və gələcək nəsillərə vəsiyyət edirəm ki, bu qızın qədrini bilsinlər, ona hörmət etsinlər. Çünki o, Xədicəyi-Kubra kimidir".

## Bir qəlb, iki məhəbbət

Xanım Zeynəb (ə) hələ uşaq yaşlarından yüksək mərifətə sahib idi. Bir gün o, atası Əlidən (ə) soruşur: "Atacan, məni istəyirsən?" Əli cavab verir ki, bəli, qızım, istəyirəm. Bu cavabdan sonra Xanım Zeynəb (ə) buyurur: "İki məhəbbət- Allaha və övladlara qarşı duyulan məhəbbət bir qəlbə sığa bilməz. Ona görə də, əslində, xalis və həqiqi məhəbbət Allaha məxsusdur. Şəfqət, ürəyi yanma və rəğbət isə övladlara məxsusdur. Və övladlara qarşı duyulan məhəbbət özü də Allaha xatir olur".

## "Müsibətlər anası"

Heç şübhəsiz ki, Xanımın həyatının ən çətin və ən dəyərli anları Kərbəla müsibətində - qardaşı İmam Hüseynin (ə) Qafiləsində olmasıdır. Buna görə də Xanımı "müsibətlər anası" adlandırırlar. Dağlar böyüklüyündə dərd gəlir, qəm gəlir, amma Xanım Zeynəb səbr edir. İmam Hüseyni, Həzrət Abbası şəhadətə yetirirlər, amma o səbr edir. Bu azmış kimi iki oğlunu da şəhadətə göndərir. Amma təmkinini itirmir. Buna görə də birmənalı olaraq, Kərbəla hadisəsini tədqiq edənlər bildirirlər ki, İmam Hüseynin (ə) vəzifəsi Kərbəlaya qədər idi, ondan sonra isə heç də daha az məsuliyyətli olmayan bu məşum hadisəni yaşatmaq vəzifəsi gəlirdi. Bunu da Xanım Zeynəb ən kamil şəkildə yerinə yetirdi.

## Məhrumiyyətlər içində ibadət

İmam Səccad bibisi Zeynəb (s.ə) barəsində bildirir: "Kərbəlada bütün o müsibətlərə baxmayaraq, bibim Zeynəb hətta öz müstəhəb namazlarını da qılırdı, minacatlarını edirdi. Bütün bu məhruumiyyətlər, səfər yorğunluğu və yetimlərə nəvaziş onu bir an da Allahdan uzaq salmırdı". Bundan əlavə, Kərbəla qəhrəmanın ibadətindən xəbərdar olan Seyyiduş-Şühəda İmam Hüseyn (ə) Xanıma buyurmuşdu: "Əziz bacım, qıldığın gecə namazlarında mənə dua etməyi unutma".




# Ey Xocalı, Niyə Yer Yarılmadı, Niyə Göy Dağılmadı?

1992-ci il, fevralın 26-cı. Qar-boran hər yeri bürüyüb. Şaxta yalın qılıncı ilə meydan sulayır. Göy üzü tutqundur. Sanki baş verəcək böyük bir faciəni qabaqcadan duymuşdur...

Böyüklü-kiçikli bütün ürəklərdə bir vahiməli bir döyüntü var. Ondan-bundan qorxulu xəbərlər eşidilir. Amma bu qorxunu dəf etmək üçün kimsənin əlindən bir şey gəlmir...

Köməksiz, yiyəsiz Xocalı... Başlarına belə vəhşiliklər açılacağını yuxuda

da görməzdilər. Bəlkə də heç ağıllarına da gəlməzdi ki, bir insan digər bir insanı belə dəhşətli şəkildə öldürə bilər. Tutaq ki, qarşıdakı sənin düşmənindir. Öldür, daha qarnını yırtmaq, başını parça-parça etmək, gözünü oymaq, burun və qulaqlarını kəsmək nə üçündür? Axı, sənin qarşındakı arvad-uşaq ki, heç kimsəyə bir zərəri olmayan Allah bəndələridir.Bunlar heç ömürlərində toyuq başı da kəsməyiblər. Elə isə bir insanın digərinə qarşı bu hədsiz kini nədən qaynaqlanır? Bircə cavabı var: ürəyin xəbsiliyi, iblisliyindən...

Erməni daşnakları nəsildən-nəsilə ötürdükləri kini boşaltmaq üçün yazıq Xocalıda bir vəhşinin əlindən gəlməsi təsəvvür olunan bütün pisliklərə bulaşdılar.

***

Qanlı 26 fevral. Beşikdə gurultu səsinə oyanıb ağlayan bir körpə səsi eşidirəm. Yazıq bilmir ağlasın, yoxsa sussun. Qəribə bir təzadlı vəziyyət. Nə daşürəkli anası var imiş! Adam da uşağını qoyub, qaçarmı? Yox, bu bir az inandırıcı deyil, axı onun anası anadır, azərbaycanlıdır, müsəlmandır. Elə isə nə baş verib? Otağa yaxınlaşıram və donub qalıram. Evin içində qanına qəltan olmuş bir ana, gözləri açıq, uşağının beşiyinə baxan halda donub qalmış. Görünür, hələ o yaralı olarkən uşaq ayılıb, anasını istəyib, onu ovundurmasını umub, ana da onu sakitləşdirmək istəyib, amma çoxlu qan itirdiyi üçün göz yaşları içində iniltili səslə körpəsini səsləyib. Uşaq da, boylanıb, gözü ilə onu axtarıb, görə bilmədikdə küsülü-küsülü, yazıq-yazıq ağlayıb. Yəni: ay ana, görmürsən ki, balaca balan ağlayır? Bəs mənə yazığın gəlmir? Sənin balan olmaram, ha... Nə biləydi ki... Bu zülmlərə necə dözdün, ey ruzigar, necə parçalanmadın, ey göy?

Niyə parçalanmadı, parçalandı, səmada bütün mələklər ağladı, ümmətinin bu gününə əziz Peyğəmbərimiz ağladı, yer üzünün yiyəsi, o tənhaların tənhası ağladı...

***

Deyirlər, elə cihazlar kəşf olunur ki, onların vasitəsilə keçmişdəkilərin səsini dinləmək olur. O qarlı-boranlı qış gecəsində Xocalıdan gələ səsləri eşitməyə hazırsanmı? Gəl, dinləyək, sonra da başımıza-gözümüzə döyə-döyə ağlayaq. Arsızlığımıza, laqeydliyimizə ağlayaq, ağlayaq, özü də hönkürə-hönkürə, qoy, çiyinlərimiz əssin, köksümüzdən haray çıxsın, qoy qəzəbdən gözlərimiz parlasın, dişlərimiz bir-birinə sıxılsın, yumruqlarımız bərk-bərk düyünlənsin və ayağa qalxaq: Alçağ! Yaz mənim qəbrimə alçağ, Qarabağ getsə əgər!-deyib nərildə, xırıltılı səslə: Ya Allah, Ya Məhəmməd, ya Əli!-deyib bağır! Bağır ki, vahiməli səsin açılsın, kar qulaqlarda partlasın, o yan-bu yanda əks-səda versin! Düşmən də görsün ki, susmağın qorxaqlığından deyilmiş...

Ay Allah! Axı nə vaxta kimi danışıqlar masası? Məlum məsələdir ki, Rusiya və Amerika bizi oyuna salıb. Bizi bir-biri ilə yarışmaq üçün topa çeviriblər.

***

1992-ci il, 26 Fevral qışı. Köməksiz qalmış körpə uşaqların iniltisi, anaların fəryadı, ağbircək nənələrin naləsi hər yeri tutmuşdu. Sanki onların üstünə hücum çəkən insan deyil, günlərdir dilinə bir şey dəyməyən ac qurdlar idi. O alçaqlar, insani duyğulardan xəbərsiz vəhşilər çoluq-çocuk demədən hamını vəhşicəsinə öldürürdülər. Öldürməklə ürəkləri soyumayaraq qadınların sinələrini kəsir, uşaqların beyin qapağını qopardırdılar. Bu tarixin az-az şahidi olduğu ən faciəli faciələrdən idi.

O hadisələri xatırlayarkən qəlbimiz qan ağlayır bu gün. Kaş başımıza gələnlərdən ibrət alaydıq, düşmən hiylələrindən qafil olmayaydıq və azğın düşmənin bizim başımıza gətirdiklərini unutmayaydıq.

***

Xocalı hadisəsi Qarabağ hadisəsinin kluminasiyasıdır. Xocalının xatırlanması bütün Qarabağın xatırlanması, orada törədilən vəhşilikləri anılması bütün Qarabağda törədilən vəhşiliklərin anılmasıdır. Buna görə də təklif edirəm ki, Xocalı facəsinin ildönümünü "BEYNƏLXALQ QARABAĞ GÜNÜ" adlandıraq.

Dilman Şahmərdanlı

# Quran əxlaqına görə :

**Müsəlmanlar Quranın açıq-aydın, asan başa düşülən olduğunu bilməli və onu öz dillərində oxumalıdırlar.**



< Qovulmuş şeytandan Allah'a sığınıram >

**“(Bu Quran) sənə nazil etdiyimiz mübarək (xeyir-bərəkətli) bir Kitabdır ki, (insanlar) onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri də (ondan) ibrət alsınlar!”**
**(Sad surəsi, 29)**

## *ALLAHIN RƏSULU (S) BUYURDU:*

*“Sizin aranızda ən yaxşıları Quranı öyrənən və öyrədəndir”. (Şeyx Tusinin əl-Əmali, cild 1, səh. 5)*

*“Quranı öyrədən və dinləyənin hər ikisi bərabər savab qazanırlar”. (Mustədrakul Vəsail, cild 1, səh. 293)*

*“Yer üzərindəki hər şey, hətta dəryadakı balıq belə Quran oxuyanın bağışlanması üçün dua edərlər”. (Usuli-Kafi, cild 3, səh. 301)*

*“Bu ürəklər dəmir paslandığı kimi paslanır, və həqiqətən onlar Quran oxumaqla cilalanır”. (İrşadul Qulub; səh. 78)*

*“Mən sizə Quran oxumağı və Allahı çoxlu zikr etməyinizi məsləhət görürəm, həqiqətən Quran sizi Cənnətdə zikr edən və Yer üzündə ilahi nur olar”. (Əl-Xisal, səh. 525)*

*“Quranı elə oxuyun ki, sizin ürəkləriniz ona məhəbbətlə aydınlaşsın, dəriniz onunla yumşalsın. Lakin ürəyiniz etinasız olduğu zaman (yəni Quranın sizin üzərinidə effekti olmadığı zaman) dayanın. (Mustədrəkul Vəsail, cild 4, səh. 239)*

*“Qurana qulaq asan şəxs (oxunan zaman) bu dünyanın bəlasından amanda qalar, Quran oxuyan şəxs o dünyanın ağır imtahanından amanda qalar. Əgər biri Quranın hətta bir ayəsinə belə qulaq assa, bu, qızılla dolu evə sahib olmaqdan daha yaxşıdır”. (Biharul Ənvar, cild 92, səh. 19)*

*“Cənnətin pillələrinin sayı Quran ayələrinin sayına bərabərdir(6236). Quran oxuyan Cənnətə daxil olan zaman ona deyilər: “Oxuya bildiyin hər bir ayəyə görə bir pillə qalx”. Deməli, heç bir kəs Quranı tam olaraq hafizəsində tutan şəxsdən daha yuxarı pillədə ola bilməyəcək”. (Biharul Ənvar, cild 92, səh. 22)*

*“Şübhəsiz Quran oxumaq günahların bağışlanması, Cəhənnəm atəşindən müdafiə və əzabdan amanda qalmaqdır. Mərhəmət oxuyanın üzərinə enəcək, mələklər onun üçün bağışlanma diləyəcək, Cənnət həmin şəxsə can atacaq və Allah ondan razı olacaq”. (Biharul Ənvar, cild 93, səh. 17)*